# Peyğəmbər (s) ilə şeytanın dioloqu

*Peyğəmbər (s) bir gün səhabələri ilə oturmuşdu. Bu vaxt qapı döyülür. Şeytan insan surətində Peyğəmbərin (s) hüzuruna gəlib deyir: Ya peyğəmbər (s) mən Allah tərəfindən göndərilmişəm. Hər nə soruşsan düzünü deyəcəyəm. Allah mənə əmr edib.*

***Peyğəmbər (s) buyurdu:***

***Mən Allah tərəfindən şeytandan bəzi qısa-qısa suallar soruşdum.***

***-Ey İblis sənin həmsöhbətin kimdir? Şeytan cavab verir: Faizçilər.***

***-Yataq dostun kimdir?***

***-Sərxoşlar***

***-Qonağın kim olur?***

***-Oğru, sehrbazlar mənim elçimdir***

***-Sənin gözünün nuru nədir?***

***-Bir ailənin dağılması***

***-Sevgilin kimdir?***

***-Cümə namazını tərk edən***

***- Ey lənətlənmiş, qəlbini nə sındırar?***

***- Allah yolunda cihad edənlər***

***-Sənin bədənini kim əridər?***

***- Tövbə edənlərin tövbəsi***

***- Ciyərini nə parçalar?***

***- Gecə və gündüz Allaha olan zikrlər. O zaman mən xəstə oluram***

***- Üzün nə zaman turşar?***

***- Gizli verilən sədəqə***

***- Gözlərini nə kor edər?***

***- Gecə namazı***

***- Başını əydirən nədir?***

***- Çoxlu qılınan camaat namazı.***

***Ya Muhəmməd Allahdan istədim ki, Adəm oğullarını mən görüm, onlar məni görməsin. Ya Muhəmməd bil ki, yalan məndədir, yalan deyən də mənəm, kim yalan söyləsə o mənəm, yalan deyən sevgilimdir, kim yalandan and içsə dostumdur. Qeybət və ələsalma mənim meyvələrimdir və şənliyimdir. Ya Peyğəmbər insanlar hər zaman namaza tələsmək istərlər, yəni namaz qılmaq istəyəndə tutaram, mane olaram, bunu məcbur edərəm və deyərəm ki, hələ vaxtın var, işinə bax, sonra qılarsan. Beləcə vaxt keçəndən sonra namaz qılar, namazı namaz olmaz. Qıldığı namaz rədd edilər, üzünə vurular. Əgər məni rədd etsə, şeytanı insan cildində göndərərəm, onu namazdan qoyaram. Əgər bunda da məni rədd etsə namaza girib sola bax, sağa bax deyərəm. Bu şəkildə baxar. Bu zaman onun üzünə əl çəkib alnından öpərəm.***

***Əgər bunu da edə bilməsəm, tək başına namaz qılanın yanına gedərəm, ona tez qılmağı əmr edərəm. O da başlar namazı tez-tez qılmağa. Xoruz ağzı ilə yerdən dən yığdığı kimi səcdəyə gedər, gələr. Bədənin Allaha yaxın vaxtı səcdədir. Şeytan insanı Allaha yaxın olmasını istəməz. İnsana bunu da etdirə bilməsəm, gedirəm camaat namazına. Onun yanına gələrəm, başını birdən qaldıraram. İmamdan əvvəl səcdəsini etdirərəm namaz vaxtı barmaqlarını tərpədərəm. Beləcə Allaha yox, mənə təsbih edər...***

# Allahı necə sevək?

## Nə edək ki, Allah bizi sevsin?

***“İnsanların bəziləri Allahın yerinə (bütlərdən, ulduzlardan və cinlərdən) şəriklər seçərək, onları Allahı sevməli olduqları kimi sevərlər. Lakin iman gətirənlərin Allaha olan məhəbbətləri (onların öz məbudlarına olan məhəbbətlərindən) daha çoxdur”. (“Bəqərə” 165).***

***Bəli, bu ayədən də göründüyü kimi iman əhli Allahı daha çox sevər. Çünki onlar çox ağıllı və düşüncəli olduqları üçün Onun pak zatını heç bir zaman buraxmazlar. Allahın eşqi olan yerdə başqa bir meyl və məhəbbət onlar üçün dəyərsiz olar. Əslində onlar Allahdan qeyrisini məhəbbətə layiq bilmirlər. Allahın eşq dənizinə o qədər qərq olublar ki, Həzrət Əli (ə) kimi deyərlər: “Tutaq ki, əzabına səbr etdim, bəs Səndən ayrılıqla nə edim?”.***

**İLAHİ**
**Sev bizi!**
**Sevdir bizi**
**Sevindir bizi**

Əslində eşq, insanın kamal növündən asılıdır. İnsan heç bir zaman yox və məhv olmuş bir şeyi sevməz. Əksinə, həmişə var olanın və kamalın ardıncadır. Ona görə də o kəsin ki, kamalı hamıdan daha çoxdur, eşq bəsləməyə hamıdan daha çox layiqlidir. Yuxarıdakı ayənin də buyurduğu kimi, iman əhlinin Allah olan sevgisi bütpərəstlərin bütlərinə olan sevgilərindən daha çox olar.

Əgər insan həqiqəti dərk edərsə, xəyal qüvvəsinin ardınca gedən insanla müqayisə edilə bilərmi? Mömінin sevgisi elmindən, ağlından, mərifətindən qaynaqlanır. Ancaq kafirin sevgisi cəhalət və xürafatdan. Ona görə də mömінin sevgisi heç bir zaman məhv olmur və davamlıdır. Ancaq kafirin sevgisi az ömürlü və davamsızdır.

Allah Təala Peyğəmbərinə (s) xitab edərək buyurur: “Mənim sevgim insanların dörd dəstəsi üçün vacibdir:

Birinci dəstə: O kəslər ki, bir-birlərini Mənə görə sevərlər.

İkinci dəstə: O kəslər ki, Mənim üçün Mənim dostluq və rabitə qurmağını bəyənmədiyim insanlarla rabitə qurmaqdan əl çəkərlər. Əgər havayi-nəfslərinə görə və Allah rizasının əksinə olaraq aralarında rabitə yaranarsa, Allaha olan sevgilərinə görə bu rabitəni kəsərlər.

Üçüncü dəstə: O kəslər ki, Mənə görə bir-biri ilə rabitə qurarlar. (Aralarında olan keçmiş kin və küdurəti yaddan çıxardarlar).

Dördüncü dəstə: Mənə təvəkkül edən insanlar”.

Hər kim Allaha olan imanına görə başqalarına sevgi bəsləyərsə, başqa birisini təqva və bəndəliyinə görə çox istəyərsə, Allah dostlarının sevgisi onu Allah yoluna tərəf çəkər. Allah dostlarından uzaqlaşdıran hər şeyi ondan uzaqlaşdırar.

Bu sevgi ilə yanaşı, Allahın ona sevgisini əldə etmiş olar. Belə ki, hər bir insan istəyər ki, o, öz məhbubunu sevdiyi kimi, məhbubu da onu sevsin. Ona görə də Allah bu sevgi haqqında Quranda buyurur: “De: «Əgər sinələrinizdə olanı (fikir və qəlbinizdən keçirdiklərinizi, əqidələrinizi, hallarınızı və adətlərinizi) gizlətsəniz, yaxud (dil və əməllə) aşkar etsəniz, Allah onu bilir. Həmçinin göylərdə olanı da, yerdə olanı da bilir və Allah hər bir şeyə qadirdir»”. (“Ali-İmran” 29).

Beləliklə deyə bilərik ki, o sevgi ki, Allaha görə olar, insana həyatın hər bir sahəsində ancaq fayda və xeyir verər. Əgər insan başqalarını Allaha xatir sevərsə və Allahın bəyənmədiyi insanlardan Ona xatir uzaq olarsa, həm bu dünyada və həm də axirətdə xeyir əldə etmiş olar. Çünki bu insan Allahı sevdiyi kimi, Allah da onu sevər.

# İslam dinində insan haqları



**"Hüquq" (haqqın cəmi) qərarlar toplusudur ki, müəyyən bir zaman çərçivəsində cəmiyyətə hakim olur**

**Hüquq – ictimai münasibətlərin düzgün tənzim edilməsi, sistemin davamlı olması üçün tənzim olunmuş kafi və təsirli icra olunma zəmanətinə malik, bir şəxs üçün bərabər azadlıq və ədaləti özündə nəzərdə tutan norma və qaydaların məcmusudur.**

Bəşər isə ona ehtiram dolu nəzərlər edilməyə layiq, şüurlu, iradə və ixtiyar sahibi olan həmin dəyərli insandır.

Bəşər hüququ anlayışı – rəngindən, irqindən, halından, yaşadığı yer və mühitdən, dil və dinindən, mənsub olduğu milliyyətindən asılı olmayaraq hər insana Allahın əta etdiyi minimal haqdır.

## Bəşər hüququnun nümunələri

**a) Həyat və yaşamaq hüququ**

Quranın insan üçün sadaladığı ən birinci haqq, həyat və yaşamaq haqqıdır. Həyat da iki növdür: maddi və mənəvi.

Heç kimin başqalarından bu haqqı almağa icazəsi yoxdur. Kiminsə maddi həyatını əlindən almaq – onu öldürmək və kiminsə mənəvi həyatını əlindən almaq – onu düzgün yoldan azdırmaq…

İslamın nəzərində həyat haqqı yalnız Allah tərəfindən insana əta edilmişdir və yalnız Allah onu insandan ala bilər. Nəzər salsaq görərik ki, heç bir dində İslam qədər intihara qadağa qoyulmamışdır. Bu məsələ də, insan üçün həyat haqqının nə qədər əzəmətli olduğunun göstəricisidir.

**b) Azadlıq hüququ**

Bütün ilahi peyğəmbərlərin göndərilməsinin əsas hədəflərindən biri insanları bu haqqa yetişdirmək, onlara zalım və istismarçıların əsarətindən nicat vermək olmuşdur. İslam nəzərində azadlıq – qul, kölə olmaqdan və Allahdan qeyrisinə boyun əyməkdən uzaq olmaq anlamındadır.

## İslam qanunlarının mənbələri

İslam qanunları, digər hüquqlarla müqayisədə, tənha ağıl və vicdandan faydalanmır. İslam hüquq və qanunlarının əsas mənbəyi Allahdır. Hər bir iş və münasibətlərin müsbət və mənfi tərəfini düzgün bilən, yalnız Odur. Allah qanun təyin edən zaman, şəxsi və ya başqalarının mənafelərini üstün tutanlardan fərqli olaraq, yalnız cəmiyyətin səadət və xoşbəxtçiliyini nəzərə alır. Belə olan halda, qanun təyin etmək haqqı da yalnız Ona məxsusdur.

## Bəşər hüququna baxışı

İnsana İslamda verilən hədsiz qiyməti, Qurani-Kərimin ayələrindən də müşahidə etmək mümkündür.

Quran, insanı yaradarkən Allaha bu cür xitab edir : "Yaradanların ən gözəli olan Allah nə qədər (uca, nə qədər) uludur!" (Muminin surəsi, 14-cü ayə).

İnsanın yaranma hədəfini bəyan edərkən isə, Quran Allahın dilindən insanı yer üzündəki yeganə canişini olaraq tanıtdırır və mələklərə ona səcdə etməyi əmr edir : "(Ya Rəsulum!) Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", – dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə təriflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsimi yaratmaq istəyirsən?"- söylədilər. (Allah onlara: ) " Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu". (Bəqərə surəsi, 30-cu ayə), "(Ya Peyğəmbər!) Biz mələklərə: "Adəmə səcdə edin! – dedikdə İblisdən başqa (hamısı) səcdə etdi. (Yalnız) o, lovğalanaraq (səcdə etməkdən) imtina etdi və kafirlərdən oldu." (Bəqərə surəsi, 34-cü ayə)



Açıq-aşkar insan övladına verilən hörməti bəyan edir: “Biz, Adəm övladını şərəfli və hörmətli elədik, onları suda və quruda (gəmilərə, heyvanlara və başqa nəqliyyat vasitələrinə) mindirib sahib etdik, özlərinə (cürbəcür nemətlərdən) təmiz ruzi verdik və onları yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik. (İnsan şüur, nitq qabiliyyəti, gözəl surət, boy-buxun, əllə yemək və s. bu kimi məziyyətlərinə görə həmişə Allaha şükür edib yalnız Ona tapınmalı, Rəbbinə heç bir şərik qoşmamalıdır!)” (İsra surəsi, 70-ci ayə)

İnsanın azadlığı, hüquqlarına ehtiram, millət, dil, rəng, irq və s. kimi xarici amillərin insana verilən dəyərdə heç bir əsaslı rol oynamaması, İslam dinində mühüm və önəmli məsələlərdəndir.

İslam dinində bütün insanlar onları bir-birindən ayıran xarici amillərdən asılı olmayaraq, bərabərdirlər: “Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır.” (Hucurat surəsi, 13-cü ayə)

İslam qadın və kişini insanlığın iki dəyərli gövhəri bilib, bəşəri şərafət və kəramətdə onlar arasında fərq qoymur. Quranda insani dəyərlərə olunan xitablarda qadın və kişi eyni mərtəbəyə malikdir: “Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri yaxşı əməllərə görə mükafatlarını verəcəyik. (Və ya gördükləri yaxşı işlərin müqabilində onlara daha yaxşı mükafatlarını verəcəyik!)” (Nəhl surəsi, 97-ci ayə)

Tarix boyu peyğəmbərlərin mübarizəsinin əsasını cəmiyyətdə sərvət, irq, qövm kimi yersiz xüsusiyyətlərdən yaranan siniflərin kökündən məhv edilib, insan azadlığı və ona lazımi dəyərin verilməsi təşkil etmişdir.

**Yuxarıda qeyd olunanları nəzərə alaraq belə bir nəticə alırıq ki, bəşər övladı üçün qanun və qaydaları icad etmək səlahiyyəti yalnız Allaha məxsusdur. Bütün insanların Yaradıcısı kimi,onların istək və ehtiyaclarını kamil şəkildə bilən, hamıdan ehtiyacsız olduğu üçün də öz şəxsi mənafeyinə xatir qanun icad etməyənin qoyduğu qanun mükəmməldir. Və bu mənbədən qaynaqlanan İslam dinində mövcud qayda-qanunlar, hökmlər bəşər övladının həyatı üçün ən gözəl və mükəmməl hesab olunur.**

Rüfət Qulizadə (Fakt xeber)

# 4 VACİBATA GÖRƏ 7 MƏNFƏƏT

**Allah Quranda insanları düzgün rəhbərliyin tabeçiliyinə dəvət edir. Düzgün rəhbərliyi tanımaq çətin bir iş deyildir - peyğəmbərlər (ə), imamlar (ə), fəqihlər.**

Əgər ibadətinizdə eyb olubsa, əgər təqvanızda eyb vardırsa, əgər düzgün rəhbərə lazımlı qədər itaət etməmisinizsə, hələ ki, sağsınız - tövbə edin. İbadətdəki ləng olmağınızı tövbə ilə aradan qaldırın.

Əgər bir il vacib namazlarını qılmamısansa, tövbə et və əlbəttə ki, qəzalarını qıl. Oruc tutmamısansa, tut. Əgər xumsun varsa, ödə. Müxtəlif günahlara düçar olmusansa, aradan qaldır.

Ey Allahın aşiqləri! İbadəti, təqvanı, rəhbərliyi və tövbəni tərk etməyin. Allah bu dörd vacibata əməl edən bəndələrinə yeddi mənfəət söz vermişdir. Belə ki, Allah buyurur ki, siz Mənimlə dörd ticarət edin, Mən də bu dörd ticarətin qarşısında elə bu dünyada sizə yeddi mənfəət və fayda verəcəyəm. Bu vədə nisyə deyildir, nağdıdır. Onlara nəzər salaq:

**1. Günahların bağışlanması.** (“Nuh” 4). Allah bütün keçmiş günahları bağışlayar. Bu Allahın vədəsidir və buna inanın. Əgər qəlbinizdə Allaha desəniz ki, mən bu gücə gedib, vəzifəm olan ibadəti yerinə yetirəcəyəm, təqvalı olacağam, rəhbərə itaət edəcəyəm, tövbə edəcəyəm, bütün keçmiş günahlarını Allah bağışlayar.

**2. Uzunömür.** (“Nuh” 4). Bu dörd məsələyə əməl edənin ömrü uzun olar. Allah sizi qoruyar ki, qəzaya düşməyəsiniz, əlacı olmayan xəstəliklər sorağınıza gəlməsin. Siz uzunömürlü insanları görmüsünüz. Allahın abidlər, təqva, itaət, tövbə əhli haqqında etdiklərinin şahidi olmusunuz.

**3. Səma bərəkəti.** (“Hud” 52). “... Rəbbinizdən bağışlanmaq diləyin, sonra Ona tərəf qayıdın ki, sizə bollu yağış göndərsin...”

**4 və 5. Mal və övladla yardım etmək.** (“Nuh” 12). “Və sizə mal-dövlət və oğullar (əta etməklə) yardım etsin”.

**6 və 7. Bərəkətli həyat.** “Bütün torpaqlarınızı abad edərəm”. “Bütün çaylarınızı sularla dolduraram, bulaqlarınızı daşdıraram”.

**Ancaq bütün bu yeddi mənfəət dörd vacibatı yerinə yetirən zaman olar. Allah bizə bu vacibatları yerinə yetirməyi nəsib etsin.**

# Zəmanəni Tanımaq



**Zəmanəsini tanıyan şəxs gözlənilməz hücumlara məruz qalmaz.**

**Hər işdən qabaq zəmanənin tələblərini dəqiqliklə araşdırmalı, sonra isə şəraitə uyğun plan cızmalıyıq. Çünki şəraiti nəzərə almadan hərəkət etsək, bir çox əziyyətlərimiz gözlədiyimiz bəhrəni verməyəcək.**

**İmam Cəfər Sadiq (ə) bu haqda buyurur: “Zəmanəsi ilə tanış olan şəxs heç vaxt gözlənilməz hücumlara məruz qalmaz”.**

Bu sözün bir dünya dəyəri var. Əgər müsəlmanlar və ya inkişaf etməmiş dövlətlər siyasətlərində bu həyati prinsipə diqqət etsəydilər, heç vaxt başqa millətlərə məğlub olmazdılar. Problemlərin çoxu inkişaf etməmiş zəif dövlətlərin böyük dövlətlərdə baş verən köklü dəyişikliklərdən xəbərsizliyindən doğur.

İslam mədəniyyəti və müsəlmanların elm, sənaye və hərbi sahədəki inkişafı Qərbi Romada heç bir dəyişiklik yaratmadı. Onlar dünyanın dəyişikliyindən o qədər xəbərsiz idilər ki, İslam ordusu Konstantinopolu alanda Roma alimləri qondarma məsələ üzərində mübahisə edirdilər. Həmin məsələ bu idi ki, görəsən, bir iynənin ucuna neçə mələk yerləşər?

Tarix təkrarlanır. Həmin tənəzzül müsəlmanlar tərəqqinin ən uca qülləsinə çatandan sonra onların başına gəldi. Şərq ölkələrinin rəhbərləri, xüsusi ilə müsəlman ölkələri bütün dünyada baş verən köklü dəyişikliklərdən tamamilə xəbərsiz idilər. Onlar artıq Avropa elm və sənayeni zəbt etdikdən sonra ayıldılar.

Osmanlı dövlətinin Avropa millətlərindən aldığı ardıcıl zərbələr bir an da olsun bu dövləti ayıltmadı. Hakimlər qəflətdə idilər. Düşmənin fəzanı yaran təyyarələrini görəndə bir qrup heyrətlə səmaya baxırdı. Onlar güman etmirdilər ki, bu bəşər işi ola bilər. Təsəvvür edirdilər ki, bütün bunlar mələk və pərilərin işidir.

Miladın on doqquzuncu əsri sənaye və inkişaf əsri idi. Amma bizim dövlət bu vaxt daxili çəkişmələr, qəbilə və xanlıq davasında idi. Hakimlər o qədər dovşan yuxusuna getmişdilər ki, okeanın o tayından tamamilə xəbərsiz idilər. Misal üçün, bu xəbəri eşitməyiniz pis olmazdı:

Fətəli şahın dövründə, Napaleon Hindistanı ələ keçirmək və bu dövləti İngiltərədən almaq istəyir. O, bu məqsədlə İranın diqqətini cəlb etmək üçün Qacar şaha məktub yazır. Şahın sarayında Napaleonun məktubunu tərcümə etmək üçün bir nəfər tapılmır. Məktubu konsulluğa və yad əllərə verməkdən də bəzi məsləhətlərə görə çəkinirlər. Həmin məktubu İranın Bağdaddakı konsulluğuna göndərirlər. Oranın bəzi üzvləri fransız dilini bilirdilər.

Belə yuxuda olan millət heç vaxt öz siyasi, iqtisadi və mədəni müstəqilliyini qoruya bilməz. O, həmişə başqa millətlərə möhtac olaraq qalar.

Böyük Papa dövlətinin uzunmüddətli hakimiyyəti, nəhayət, sona çatır. Papa dövləti özünün dünyəvi qüdrətini qorumaq üçün “inkivizisya” təşkilatını yaradır. Amma böyük səhvə yol verir. Onlar camaatın arasında papaların puç fikirlərini məhv etmək istəyən köklü dəyişikliklərdən xəbərsiz idilər. Təsəvvür edirdilər ki, əziyyət, öldürmək və zülm etmək bu selin qarşısını ala bilər. Amma bu fikir onun zəmanənin dəyişikliyindən xəbərsiz olmasını göstərirdi. Əgər ömrünün axırlarında yeni plan cızmasaydı və özünü zəmanə ilə uyğunlaşdırmasaydı, hazırda məsihi dinindən dünyada əsər - əlamət qalmazdı.

O, yuxulu gözlərini ovuşdurub, yolunu dəyişərək orta məktəb, institut təsis etməklə, ictimai və elmi xidmətləri ilə mövqeyini bir daha bərpa edir.

On doqquzuncu əsrdə Əmir Kəbir Avropadakı dəyişikliklərdən xəbərdar olur. Dövrünün şərtlərini anlayır. Dərk

edir ki, artıq qılınc, ox və kamanla müharibə dövrü başa çatıb və sənaye istehsal üslubunu dəyişib.

O, dəqiq araşdırmalar və dünyagörüşü ilə dərk edir ki, geridə qalmış dövlətlərin bədbəxtçilik səbəblərindən biri onları Avropanın bazarına çevirən Avropa iqtisadiyyatına bağlılıq olmuşdur. Avropa istehsalçı, bunlar isə istehlakçıdırlar. O, həm də dərk edir ki, bu bağlılıq və ya daha gözəl desək, bu biçarəlik ölkə sənayesinin və potensialının tamamilə məhvinə səbəb olmuşdur. Ona görə də 1849-cu ildə “Darülfünun” (Universitet) tikdirməyə başlayır. 1850-ci ildə onun şərq binasının tikintisini başa çatdırır.

O, özünün etibarlı adamlarını Vyenə göndərdi ki, bir nəfər quru qoşunlar müəllimi, bir nəfər topçu, bir həndəsə müəllimi, bir mədənşünas, iki mədənçi, bir həkim və cərrah, bir dərman mütəxəssisi illik dörd min tümən əməkhaqqı ilə beş, ya altı il müddətinə işləmək üçün İrana dəvət etsinlər.

Əmir sənayenin inkişafı məqsədi ilə sərmayəçilərə kifayət qədər vəsait verir. O, Sari şəhərində şəkər fabriki, Tehranda toxuculuq və bez istehsalı fabriki, Kaşanda ipək fabriki, İsfahan və Tehranda samavar və faytondüzəltmə zavodları təsis edir. İsfahan və Kaşan toxucularına çoxlu yardımlar edir. Alimləri müxtəlif sahələrdə yeni kəşflər və ixtiralar etməyə təşviq edir. İranın milli məhsullarından Tehranın Ərk qəsəbəsində sərgilər təşkil edir.

Təəssüflər olsun ki, millətin bu yanar məşəlini söndürmək üçün xain dəstələr fəaliyyətə başlayırlar. 1851-ci ildə Qacarın cəlladları “Darülfünun”un ilk açılışında Əmir Kəbiri öldürürlər.

İranda şose yolları salınanda at, ulaq və kəcavə öz fəaliyyətini itirdi. Bu vaxt kəcavə sürənlər nalə edərək, hakimiyyətdən istəyirlər ki, maşın sürücülərinə sürücülük icazəsi verməsin. Bu fikirlər dünyadakı dəyişikliklərdən



xəbərsizliyin məhsulu idi.

Çox vaxt bizim tacirlərimizin işlərini bugünkü dünya bəyənmir. Həqiqətdə onlar dəyişiklik və təkamüllə mübarizə aparırlar. Nəticədə isə qəti məğlubiyyətlə üzləşirlər.

Burada biz böyüklərimizin qiymətli sözlərindən birini başa düşürük: “Zəmanə ilə döyüşməyin, yoxsa sizinlə döyüşərlər”.

Müvəffəq insan zamanın nəbzini tutan və düşməni tərəqqi vasitəsi bilən şəxsdir. Alimlər düşməni insanın müvəffəqiyyət vasitəsi bilirlər. Çünki düşmən bizim eyblərimizi qələm və dillə əks etdirən ən gözəl güzgüdür. Düşmən qürurumuzu azaldır. Bəzən də gizli istedadlarımızın üzə çıxmasına kömək edir.

Şərq və qərbin inkişafları rəqabətlərin məhsuludur. Rəqabət olmasa, istedadlar çiçəklənməz.

## ÖZÜNÜ SINDIR GÜZGÜNÜ SINDIRMAQ NİYƏ?!

**Baxmayaraq ki, bir kişi dünyanın maddi işlərinə qərq olmuşdu, amma camaatı aldatmaq üçün ah və nalə ilə dünyaya pis baxır və onu sərzəniş edirdi. (Məsələn deyirdi: Ey namünasib ruzigar, ey alçaq dünya və s...)**

**İmam Əli (əleyhissalam) onun öz işlərinin günahını dünyanın boynuna atdığını gördükdə buyurdu:**

**“Ey dünyaya pis deyən kişi və onu alçaq hesab edən adam! Baxmayaraq ki, özün dünyaya aldanmısan və onun bihudəliklərinin düşkünü olmusan!**

**Məgər özün dünyaya aldanmamısan ki, onu sərzəniş edirsən?!” Sən gərək dünyanı günahkar biləsən yoxsa dünyanın səni günahkar bilməyə haqqı vardır?! Nə vaxt dünya sənə aşiq oldu? Nə vaxt və harada səni aldatdı? Səninlə hansı naz və qəmzəni etdi? Olmaya səni atalarının çürümüş cəsədləri ilə aldatdı? Yoxsa analarının qəbrin içərisində yatdığı yer səni məğrur etdi? Nə qədər onların diri qalmaları üçün əl-ayağa düşdün və müalicəyə üz tutdun ki, o zəhmətlərin səmərəsiz qaldı və sənin ağlayıb sızlamağın heç bir fayda vermədi. Belə ki, onların ölümünün qarşısını ala bilmədin və dünya isə elə həmin mənzərələrlə öz gələcəyini mücəssəm etdi və qətligahını nişan verdi...**

**Lakin bil, həmin dünya sidq səfa və düzlük yeridir. Bu da elə bir adamlar üçündür ki, onunla düzlük, səfa-səmimiyyətlə davranıblar. Dünya sağlamlıq evidir o kəslər üçün ki, onu dərk edələr. Eləcə də ehtiyacsızlıq evidir o adamlar üçün ki, ondan düzgün istifadə edələr. Nəsihət yeridir onlar üçün ki, nəsihət qəbul edən qəlbləri olmuş olsun.**

**Dünya Allahın dostlarının məscidi, yaradanın mələklərinin namazqılan yeri və Allahın vəhyinin nüzul olduğu yer. Eləcə də Allah övliyalarının ticarətgahıdır. Onlar həmin dünyada Allahın rəhmətini kəsb edərək behişti qazanırlar...**

**Buna görə də dünya bir güzgüdür ki, yaxşı və pisi göstərir və əgər insan özü pis olarsa güzgüyə pis deməməlidir ki, deyiblər: “Özünü sındır, güzgünü sındırmaq niyə!?”**



# PEYĞƏMBƏRİN (S) SƏXAVƏTİ

Həzrət Əli (ə) Peyğəmbərin (s) səxavəti barədə belə buyurur: **"Allahın Rəsulu (s) camaatın ən səxavətlisi və ən gözəl həyat sürəni idi. Belə ki, kim o Həzrətlə (s) oturub-dursaydı onu tanıyar və sevərdi."**

Həmçinin ibn Abbas Peyğəmbərdən (s) rəvayət edir ki, buyurdu: "Allah-Təala məni tərbiyə etmiş və mən də Əlini (ə) tərbiyə etmişəm. Allahım mənə əmr etmişdir ki, səxavətli olum və hamıya yaxşılıq edim, həmçinin Allahım məni camaata qarşı paxıllıq və cəfa etməkdən çəkindirmişdir."

Cabir ibn Əbdullah Ənsari deyir: "Heç vaxt Peyğəmbərdən (s) elə bir şey istənilmədi ki, cavabında "yox" demiş olsun." (Biharul-ənvar cild 16, səh.257.) Həmçinin Səhl ibn Saidi deyir: "Qara və ağ yundan Peyğəmbər (s) üçün paltar tikmişdim, o Həzrətin (s) həmin paltardan xoşu gəldi və onu tərifləyərək buyurdu: " Gözəl paltardır." Bu zaman bir köçəri ərəb dedi: " Onu mənə ver." Peyğəmbər (s) heç fikirləşmədən paltarı götürüb ona bağışladı." (Nasixut-təvarix cild 2, səh.584).

İmam Cəfər Sadiq (ə) buyurur: "Kim dünya malından olan bir şeyi Allahın Rəsulundan (s) istəsəydi o Həzrət (s) onun istədiklərini verərdi. Bir gün bir qadın oğlunu Peyğəmbərin (s) yanına göndərərkən dedi: " Get Allahın Rəsulundan (s) bir şey istə, əgər desə ki, əlimdə bir şey yoxdur, onda de ki: " Köynəyini mənə ver."

İmam Cəfər Sadiq (ə) sözünü belə davam etdirir: " Peyğəmbər (s) köynəyini əynindən çıxarıb ona verdi, özü köynəksiz qaldı. Bu zaman Allah-Təala İsra surəsinin 29-cu ayəsini nazil edərək buyurdu:

"Əllərini boynuna qoyub başqalarına bir şey verməkdən çəkindiyin kimi həddindən artıq açıq da qoyma, yoxsa özünü danlayıb həsrətlə evdə oturarsan." (yəni, o dərəcədə əliaçıqlıq etmə ki, özün əliboş və yuxarıdakı hədisdəki kimi köynəksiz qalasan) (Sünənün-Nəbi səh.54).

Qəzzali "İhyaul-ulum" kitabında yazır: "Allahın Rəsulu (s) insanların ən səxavətlisi idi, heç vaxt yanında dinarı və ya dirhəmi qalmazdı, əgər bir şeydən ona çox verilsəydi, o Həzrət (s) onların hamısını paylamayınca gecə də olsa evinə getməzdi. Allahın ona verdiyi nemətlərdən azacıq özünün və ailəsinin yeməyi üçün götürər, qalanını isə Allah yolunda ehtiyacı olanlara bağışlayardı. O Həzrətdən (s) nə istəyərdilərsə onu verərdi. Hətta bəzən özü üçün götürdüyü azacıq nemətdən də paylayardı."

Əbu Səid Xərquşi yazır: "Peyğəmbərin (s) səhabələrindən biri evlənmişdi və ehtiyaclı idi. Peyğəmbərdən (s) ona bir şey verməsini istədi. Allahın Rəsulu (s) Aişənin evinə getdi və dedi: " Bu səhabəyə vermək üçün bir şeyimiz varmı?" Aişə dedi: " İçində bir qədər un olan bir zənbil var." Peyğəmbər (s) həmin zənbili o cavana bağışladı."

Bir gün Peyğəmbərin (s) səkkiz dirhəm pulu var idi. Bazara getdi ki, özünə bir şey alsın, yolda bir kənizi ağlayan halda gördü. Soruşdu: "Nə üçün ağlayırsan?" Kəniz dedi: "Sahibim mənə iki dirhəm verib bazara yollayıb, o pulu itirmişəm." Peyğəmbər (s) ona iki dirhəm verib altı dirhəmlə bazara getdi və bazardan özü üçün dörd dirhəmlik köynək aldı. Qayıdanda gördü ki, arıq cüssəli müsəlman bir kişi çılpaq halda yerdə oturub camaatdan onu geyindirmələrini istəyir və deyir: "Bir adam varmı ki, məni geyindirsin və Allah da ona bu işin əvəzində cənnət paltarı versin. Allahın Rəsulu (s) özü üçün aldığı köynəyi kişiyə verdi və yenə bazara qayıtdı. Əlində qalan iki dirhəmə bir köynək aldı və geyindi. Qayıdanda yenidən yolda ağlayan kənizi gördü. Ağlamasının səbəbini soruşdu. Kəniz dedi: "Nə lazımdırsa almışam, amma gec olduğundan evə qayıtmağa qorxuram." Peyğəmbər (s) dedi: "Gəl mənimlə gedək, evdəkilərə tapşırım ki, sənə bir söz deməsinlər."

Beləcə bir evin qapısına yaxınlaşdılar. Evdə kişi yox idi, amma qadınlar evdə idi. Peyğəmbər (s) qapının arxasından belə salam verdi: "Əssəlamu əleykunnə və rəhmətullahi və bərəkatuh." Qadınlar o Həzrətin (s) səsini eşidib onu tanıdılar, amma ona cavab vermədilər. Peyğəmbər (s) onlara ikinci dəfə salam verdi, yenə cavab vermədilər, üçüncü dəfə uca səslə salam verdi, qadınların hamısı dedilər: "Ələykəs-səlam və rəhmətullahi və bərəkatuh." Peyğəmbər (s) buyurdu: "Məgər siz mənim səsimi eşitmirdiniz?" Dedilər: "Eşidirdik, amma istəyirdik ki, bizlərə daha çox salam göndərəsiniz." Allahın Rəsulu (s) buyurdu: " Bu kəniz gecikdiyindən evə gəlməyə qorxurdu, mənə görə onun təqsirindən keçin." Dedilər: "Ata-anamız sənə fəda olsun, sizin şəfaətinizi qəbul etdik və onun təqsirindən də keçirik, üstəlik sizin xoş gəlişinizə görə də onu azad edirik." Peyğəmbər (s) geri qayıtdı və buyurdu: " Hələ bu qədər bərəkətli pul görməmişdim. Qorxmuşa aman verdi, bir kənizi azad etdi, iki nəfəri geyindirdi; bir qoca kişini və bir də mənim özümü. Hər kəs bir müsəlmanı geyindirsə, o geyim cırılıb aradan gedənə qədər o adam Allahın amanındadır." (Şərəfun-Nəbi səh.69)

"Əvariful-məarif" kitabında nəql olunmuşdur ki, Cənab Cəbrail (ə) dedi: " Dünyada olunan bütün əməllərə nəzər saldım, heç kəsi Peyğəmbər (s) qədər əliaçıq görmədim."

# PEYĞƏMBƏRİN (S) TƏVAZÖKARLIĞI



**Allahın Rəsulu (s) o dərəcədə təvazökar idi ki, fəqirlər və kasıblar ilə oturar, onlarla birlikdə yemək yeyər və buyurardı: "Mən də Allahın bəndəsiyəm, bəndələr kimi yeyir, bəndələr kimi otururam."**

Zeyd Şəhham imam Cəfər Sadiqdən (ə) rəvayət edir ki, buyurdu: "Allah-Təala həzrət Muhəmmədi (s) peyğəmbərliyə seçdiyi andan o Həzrətin (s) vəfatınadək Peyğəmbər (s) bir şeyə söykənərək yemək yemədi, əksinə qullar kimi yemək yeyir, onlar kimi də oturudu." Zeyd deyir: Soruşdum: " Nə üçün belə edirdi?" İmam Cəfər Sadiq (ə) buyurdu: " Allah-Təalanın qarşısında təvazökarlıq üçün." (Biharul-ənvar cild 16, səh.261)

Başqa bir hədisdə imam Cəfər Sadiq (ə) buyurur: "Peyğəmbər (s) hansı evə getsəydi yuxarı başa keçməz, elə qapının yanındaca oturardı." ( "Üsuli-kafi", Əl-işrə kitabı 6-cı hədis)

Mərhum Deyləmi (r.ə.) özünün "İrşadul-qulub" kitabında rəvayət etmişdir ki, Allahın Rəsulu (s) ayaqqabısına və paltarına özü yamaq tikərdi, qoyunları özü sağardı, xidmətçilərlə birlikdə yemək yeyərdi. Quru yerdə oturardı, ulağa minərdi, çox vaxt başqalarını da öz yerində otuzdurardı, evi üçün özü bazarlıq edərdi. Heç bir xəcalət çəkmədən aldıqlarını özü evə aparardı, hamı ilə - istər böyük, istər kiçik, kasıb ya varlı - əl ilə görüşər və görüşdüyü şəxs əlini çəkmədən Peyğəmbər (s) əlini çəkməzdi. Qarşısına çıxan hər kəsə - böyüklü kiçikli – salam verərdi, kim o Həzrəti (s) süfrəsinə dəvət etsəydi kasıb süfrəsi olduqda belə, süfrədə cəmi bir neçə xurma olsaydı belə onların dəvətini qəbul edərdi. (İrşadul-qulub, cild 2, səh. 74)

Şeyx Səduq (r.ə.) imam Muhəmməd Baqirdən (ə) rəvayət edir ki, Peyğəmbər (s) buyurdu: "Beş şeydən ölənədək əl çəkmərəm: Bəndələrlə (qullarla) birgə yemək yeməkdən, palansız ulağa minməkdən, keçini öz əlimlə sağmaqdan, yun paltar geyinməkdən, uşaqlara salam verməkdən, təki məndən sonra bunlar sünnət olsun." (Şeyx Səduq "Əmali" 17-si məclis, hədis 2)

Rəvayət olunur ki, Peyğəmbər (s) səfərdə idi, yemək üçün bir qoyun kəsilməsini əmr etdi. Yoldaşlarından biri dedi: "Onu kəsmək mənim boynuma." Başqası dedi: "Dərisini soymaq da mənim boynuma." Başqa birisi dedi: "Xörəyi bişirmək də mənim boynuma." Beləcə hər kəs bir işi öz boynuna götürdü. Peyğəmbər (s) belə buyurdu: "Elə isə ocaq qalamaq üçün odun yığmaq da mənim boynuma." Dedilər: "Ey Allahın Elçisi, biz özümüz odun yığacağıq, daha sizin zəhmət çəkməyinizə ehtiyac yoxdur." Həzrət (s) buyurdu: "Bilirəm, amma özümü sizdən üstün saymaq istəmirəm, çünki Allah-Təala özünü başqalarından üstün sayan bəndəni xoşlamır." (Müntəhal-amal cild 1, səh.18)

Bir kişi həzrət Peyğəmbər (s) üçün süd və bal gətirmişdi. Allahın Rəsulu (s) buyurdu: "Bunların biri olan yerdə o birisinə ehtiyac yoxdur. Mən bunların ikisini də yeyə bilmərəm, bu işi başqalarına da haram etmirəm, mən yalnız Allah qarşısında təvazökar olmaq üçün belə edirəm. Çünki kim Allah-Təalanın qarşısında təvazökar və başıaşağı olarsa Allah onu ucaldar. Amma kim təkəbbürlük və lovğalıq edərsə Allah-Təala onu alçaldar." (Tuhəful-uqul, Məvaizun-Nəbi fəsli)

Peyğəmbər (s) oturduğu məclisin yuxarı-aşağısı olmazdı, hamı dövrəvari oturardı. Ənəs ibn Malik deyir: "Biz Peyğəmbərin (s) yanına getdikdə orada dövrəvari oturardıq." Həmçinin Cabir (r.ə) nəql edir ki, Həzrət Peyğəmbər (s) yola çıxarkən səhabələr o Həzrətdən (s) irəlidə yol gedər və arxanı mələklər üçün saxlayardılar. (Sünənün-Nəbi səh.70)

Əbuzər Ğəffari (r.ə) rəvayət etmişdir ki, Allahın Rəsulu (s) təvazökarlıqla və çox sadə tərzdə səhabələri ilə oturardı, belə ki, özgə bir şəxs içəri girsəydi səhabələr Peyğəmbəri (s) nişan verməyincə, həmin şəxs oturanların hansının Peyğəmbər (s) olduğunu bilməzdi. Biz həzrət Peyğəmbərdən (s) xahiş etdik ki, başqaları onu tanısınlar deyə onun üçün bir yer düzəldək. Həzrətin (s) razılığını əldə etdikdən sonra daş və gil ilə bir yer düzəltdik. Allahın Elçisi (s) daşın üstündə oturdu və biz də onun ətrafına toplaşdıq. (Sünənün-Nəbi səh.53)

Əbul-Fəth Razi öz təfsirində yazır: "Peyğəmbər (s) belə bir dua edərdi: İlahi, məni kasıblar kimi yaşat, kasıblar kimi öldür, qiyamət günü kasıblarla birgə dirilt!"

İmam Muhəmməd Baqir (ə) buyurur: "Bir mələk Peyğəmbərin (s) yanına gəlib dedi: Allah-Təala səni iki şeyin ixtiyarında qoymuşdur, hansını istəyirsən seç. Birincisi budur ki, həm təvazökar, həm də elçi olasan. O biri budur ki, Süleyman (ə) kimi padşah və peyğəmbər olasan. Peyğəmbər (s) Cəbrailə (ə) baxdı və o da işarə ilə təvazökarlığı göstərdi. Peyğəmbər (s) buyurdu: Mən bəndəçilik və təvazökarlıqla peyğəmbərliyi seçirəm." (Biharul-ənvar cild 18, səh. 334; Üsuli-kafi Təvazö fəsli, hədis 5)

"Məkarimul-əxlaq" kitabında Peyğəmbərin (s) həyatı barədə Əbu Səid Xidri rəvayət edir ki, Allahın Rəsulu (s) pərdə arxasındakı qızlardan da həyalı idi. Belə ki, əgər bir şeydən xoşu gəlməsəydi qiyafə və simasından bilinərdi (daha sözlə deməyə ehtiyac olmazdı). (Sünənün-Nəbi səh.23)

Fərhad Mirzə

# İslamdan başqa dinlərdə də ruhanilər təsbehdən istifadə edirlərmi?



***İslamdan başqa dinlərdə də ruhanilər təsbehdən istifadə edirlərmi? Onların təsbehi müsəlmanların təsbehindən necə fərqlənir?***

***Təsbeh Allahın adlarını zikr edərkən, qısa duaları oxuyarkən hesabı itirməmək üçün bir vasitədir. Demək olar ki, bütün dinlərdə təsbehdən istifadə edilir. Buddizmdə 18, 21, 27, 54 və 108 dənəli, hinduizmdə 50, 54 və 108 dənəli, xristianlığın katolik qolunda 33, 50 və 150 dənəli, pravoslavlıqda 33 dənəli (Həzrət İsanın (ə) yaşını göstərir), anqlikan və lüteran kilsələrində müvafiq olaraq 33 və 18 dənəli, bəhailikdə 19-a bölünən 95 dənəli təsbehlərdən istifadə edilir. Xristian təsbehlərinin başında adətən xaç fiquru olur. İslamda təsbehlər adətən, 33 və ya 99 dənəli olur. Çünki Allahın gözəl adlarının (əsmaül-hüsna) sayı 99-dur; təsbehlə deyilən zikrlərin sayı da adətən ya 33, ya da 100 olur.***

# TƏSBİH (və ya TƏSBEH) tarixçəsi



***Ərəb dilindən tərcüməsi "müqəddəs saymaq" deməkdir. Allah-təalanın gözəl adlarından (əsmaül-hüsna) biri də Sübhandır (müqəddəs, pak, nöqsandan uzaq). Təsbih – dua vasitəsilə Allahın müqəddəsliyini dilə gətirmək, Onu təqdis etmək deməkdir.***

Təkbir – "Allahu əkbər" söyləmək mənasını ifadə etdiyi kimi, təsbih də Allahı "Sübhən Allah" kəlməsi ilə öyməkdir. Cəfəri məzhəbində gündəlik namazların üçüncü və dördüncü rükətlərində Fatihə surəsinin əvəzinə oxunan zikr təsbihati-ərbəə (dörd təsbih) adlanır. Bu zikr 4 cümlədən ibarətdir: "Sübhən Allahi vəlhəmdu lillahi və la ilahə illəllahü vəllahu əkbər".

Qurani-kərimdə bildirilir ki, bütün varlıq aləmi Allahı gizli və açıq şəkildə təsbih edir: "Göylərdə və yerdə nə varsa, (hamısı) Allahı təqdis etmədədir. O, yenilməz qüvvət və hikmət sahibidir" (Hədid, 1; Həşr, 1; Səff, 1). "Yeddi göy, yer və onlarda olanlar (bütün məxluqat) Allaha təsbih deyir. Elə bir şey yoxdur ki, Allaha həmdlə təsbih etməsin. Lakin siz onların təsbihini anlamazsınız. (Allah) həqiqətən, həlimdir, bağışlayandır" (İsra, 44).

Quranda Allahı çox təsbih etmək həm Həzrət Məhəmməd Peyğəmbərə (s), həm də müsəlmanlara tövsiyə edilir: "Sən isə Rəbbini həmdlə təsbih et və səcdə edənlərlə birlikdə ol!" (Hicr, 98). "Ey iman gətirənlər! Allahı çox zikr edin! Ona səhər-axşam təsbih söyləyin!" (Əhzab, 41).

Təsbeh həm də Allahın adlarını zikr edərkən, qısa duaları oxuyarkən hesabı itirməmək üçün bir vasitədir. Demək olar ki, bütün dinlərdə təsbehdən istifadə edilir. Buddizmdə 18, 21, 27, 54 və 108 dənəli, hinduizmdə 50, 54 və 108 dənəli, xristianlığın katolik qolunda 33, 50 və 150 dənəli, pravoslavlıqda 33 dənəli (Həzrət İsanın (ə) yaşını göstərir), anqlikan və lüteran kilsələrində müvafiq olaraq 33 və 18 dənəli, bəhailikdə 19-a bölünən 95 dənəli təsbehlərdən istifadə edilir. İslamda təsbehlər adətən, 33 və ya 99 dənəli olur. Çünki Allahın gözəl adlarının (əsmaül-hüsna) sayı 99-dur; təsbehlə deyilən zikrlərin sayı da ya 33, ya da 100 olur.

İslamda təsbehin tarixini Həzrət Fatimeyi-Zəhranın (ə) adı ilə bağlayırlar. Rəvayətə görə, Həzrət Məhəmməd Peyğəmbər (s) Fatiməyə (ə) aşağıdakı qaydada zikr söyləməyi öyrətmişdi: 34 dəfə "Allahu əkbər", 33 dəfə "Əlhəmdü lillah" və 33 dəfə "Sübhən Allah" (bu zikrə Həzrət Fatimənin (ə) təsbihi deyirlər). Həzrət Fatimə (ə) əvvəlcə bir ip götürüb ona 100 ədəd düyün vurur və hər zikri deyərkən düyünlərdən birini çevirir. Sonralar Peyğəmbərin əmisi Həmzə Ühüd savaşında şəhid oldu və Fatimə (ə) Həmzənin qəbrinin torpağından bir az götürüb su ilə qarışdırdı, 100 ədəd xırda kürəcik düzəldib ortadan deşdi və ipə keçirtdi. İlk təsbeh bu cür yarandı. Daha sonralar İmam Hüseynin (ə) məzarı yerləşən Kərbəla torpağından təsbehlər düzəltməyə başladılar (buna türbət təsbeh deyirlər). Hal-hazırda həm torpaqdan, həm də taxta, kəhrəba və plastikdən, təbii daşlardan təsbeh hazırlayırlar.

Klassik ədəbiyyatda isə təsbeh – riyakar sufilərin, mövhumatçı ruhanilərin xalqı aldadıb öz torlarına salmaq üçün istifadə etdikləri vasitə kimi təqdim edilir. Məsələn:

Könül, səccadəyə basma ayaq, təsbihə əl vurma,
Namaz əhlinə uyma, onlar ilə durma-oturma!

(M.Füzuli).

Aşiqi-sadiq duzağın quşu, ey zahid, degil!
Danə düzmə təsbihi, səccadəyi dam eyləmə!

(S.İ.Nəsimi).

# Qadına niyə HİCAB vacib buyurulub?



**Qadın - gözəllik, iffət və zəriflik mənbəyidir. Kişi isə bu gözəlliklərdən təsirlənən tərəfdir. Ona görə də İslam, qadınlar üçün hicabı iffət hesab etmiş və İslami dəyərləri qoruyan hər xanımın ona əməl etməsini vacib buyurmuşdur.**

Allahın Rəsulu (s) Höccətül-vidada olan zaman bir cavan qadın o Həzrətə (ə) sual verməк üçün gəlir. Fəzl ibni Abbas da Peyğəmbərin (s) yanında idi. Qadın sualını verir və Peyğəmbər (s) onun sualına cavab verən zaman hiss edir ki, bu ikisi bir-birinə baxır. Fəzl cavan, yaraşıqlı bir cavan idi. Peyğəmbər (s) əli ilə Fəzlin üzünü başqa istiqamətə çevirir və buyurur: "Cavan qadın və cavan kişinin nəzərlərindən qorxuram ki, şeytan gələr və onları yolundan azdırar".

Qurani-Kərimin "Nur" surəsinin 31-ci ayəsində qadınların geyimi haqqında məlumat verilmiş və onların hicab bağlamaqları vacib buyurulmuşdur. Eyni zamanda "Əhzab" surəsinin 59-cu ayəsində də Peyğəmbər (s) xanımlarının timsalında bütün müsəlman qadınlarının hicab bağlamağı buyurulmuşdur.

Cabir ibni Abdullah nəql edir: "Peyğəmbərlə (s) bir yerdə idik və o Həzrət (s) qızı Fatimənin (s.ə) evinə getmək istədi. Qızının evinə çatanda mübarək əlləri ilə qapını itələyir və buyurur: "Əssəlamu Əleykum!". Peyğəmbərin (s) sevimli qızı cavab verir: "Əleykə səlam, ya Rəsulallah!". Bu zaman Peyğəmbər (s) evə girmək üçün icazə istəyib buyurur: "Mən və mənim yanımda olan evə girə bilərikmi?". Bu zaman Fatimə (s.ə) buyurdu: "Atacan, başımda bir şey yoxdur". Allahın Rəsulu (s) buyurdu: "Libasının əlavə hissəsi ilə başını ört". Peyğəmbər (s) yenidən icazə alır və Fatimə (s.ə) soruşur: "Sizinlə kim gəlib?". Həzrət Peyğəmbər (s) buyurur: "Cabir". O zaman biz evə girdik. Cabir deyir: "Zəhranın (s.ə) üzü saralmışdı və Peyğəmbər (s) ondan soruşur: "Qızım, niyə beləsən?". Zəhra (s.ə) deyir: "Aclıqdandır". Peyğəmbər (s) dua edir: "Ey acları doyuzduran və məhsulları əmələ gətirən Allah! Muhəmmədin (s) qızı Fatiməni (s.ə) doyuzdur". Cabir nəql edir ki, Peyğəmbərin (s) bu duası yerinə yetdi. Onun bu duasından sonra Zəhranın (s.ə) üzünün rəngi dəyişdi. O gündən sonra Fatimə (s.ə) heç vaxt ac olmadı".

İffət və hicab nümunəsi olan Həzrət Zəhra (s.ə) həyatının hər bir sahəsində hansı şəraitdə olursa-olsun, nəinki hicabını tərk etməmişdir, hər zaman bu mübarək simvolu təbliğ etmişdir. Çünki hicabın fəlsəfəsini dərk etmişdi və bunu insanlara da ötürmüşdü.

Bir çox əhli-təsənnün və Əhli-beyt (ə) alimləri yuxarıdakı ayələrə istinad edərək, hicabın hədlərini müəyyən etmişdilər. Bir neçə alimin bu haqda fikirlərinə nəzər salaq.

"Əl-fiqh əla məzahibil-xəmsə"də gəlir ki, İslam alimləri bu fikirdə müştərəkdirlər ki, qadın və kişi evdən bayırda geyindiyi geyimləri namaz vaxtı da geyinməlidir. Sonra deyilir: "Əhli-beyt (ə) alimlərinin əqidəsinə görə namaz vaxtı da bədənin elə hissələri örtülməlidir ki, naməhrəm yanında da örtülür".

Əllamə Hilli buyurur: "Əhli-beyt (ə) alimlərinin nəzərinə görə, qadınların biləkdən aşağı əlləri də üzü kimi açıq qala bilər".

Bəli, gözəllik və zəriflik mənbəyi olan qadın Allahın hikmətinə görə hicab geyinməli və öz gözəlliklərini nümayiş etdirməməlidir. Çünki onların gözəllikləri ancaq məhrəmləri üçündür. Naməhrəmlər onların bu keyfiyyətlərini görməməlidirlər. Əgər belə olmazsa, cəmiyyətdə fəsad baş verər ki, hamımız bunun şahidiyik. Hər bir yerdə qadını əhəmiyyətsiz və dəyərsiz bir alət kimi istifadə etmək istəyirlər.

Reklamların bir çoxunun bəzəyi ancaq qadınlardır. Qadınlar nəzəri daha çox cəlb etdiyindən onlardan incəsənət sahəsinin demək olar ki, hər bir sahəsində bəhrələnirlər. Onu dəyərsizləşdirir və bu qiymətli gövhəri ucuz alətə çevirirlər. Halbuki, qadın nə qədər gizli olarsa, nə qədər örtülərsə bir o qədər çox onun dəyəri artar və cəmiyyətdə əsl yerini tapar.

**Ey kaş, bunu bütün qadınlar dərk edə biləydi...**

/Deyerler.org/



# Postmodernizm və İslam

**Postmodernizm nədir? Ona necə tərif vermək olar? Postmodernizm bir məktəbdirmi? Yoxsa, incəsənət və memarlıqda xüsusi bir üslubdur? Bəlkə bir dünyagörüşüdür? Yaxud da modernizm sistemi və iqtidarı əleyhinə bir çevriliş təfəkkürüdür? Postmodernist alimlər arasında bütün bu suallara cavab ola biləcək vahid bir fikir yoxdur. Bəzilərinə görə, Qərbdə modernizmdən qaynaqlanan çatışmazlıqları görən ictimai məsələlər üzrə və mədəniyyət nəzəriyyəçiləri belə bir nəticəyə varmışlar ki, postmodernizm (almanca "moderndən sonra gələn") modernizm dönəmindən mənşə alan proseslər və nizamsızlıqlar qarşısında bir əksüləməldir. Onların fikrincə, postmodernizm modernizmin insan və dünyaya baxışlarını və onlar haqqındakı təsəvvürünü qəbul etmir. Onun cahanşümulluğunu və qloballığını tənqid atəşinə tutur. Önəmlisi budur ki, bu fərdlər dünyaya qəbul etdirməyə çalışırlar ki, postmodernizm əsri təzadların azalması, sülh və tolerantlıq əsridir (Bəhmən Bazərqani, "Postmodernizmin vəziyyəti və doğurduğu bəzi nəticələr haqqında" məqaləsindən). Bəziləri də postmodernizmi modernizm dalğasının davamı hesab edirlər. Amma fərqi bundadır ki, postmodernizm modern zəkaya daha mülayim, ifratçı baxış növünü tarazlaşdıran üslubdur. Buna görə də postmodernizm vahid şəkildə başa düşülmür. Bütün bu yanaşmaları əhatə edəcək vahid tərif vermək olmur. Buna səbəb odur ki, postmodernizm məfhumu mürəkkəb, çoxşaxəli, çərçivəsiz, vahid nəzm və üsluba sığmayan anlayışdır. Postmodernizm anlayışının mürəkkəb və anlaşılmaz olmasına, postmodernist nəzəriyyəçilər arasında əsaslı fikir ayrılığının mövcudluğuna baxmayaraq, bu istiqamətin mütəfəkkirlərinin fikirlərində postmodernizm haqqında müştərək məqamlar tapmaq olar** *(Seyid Cavad Səccadi, "İslamda modernizm və postmodernizm", səh. 117).*

"Postmodernizm modern fəlsəfə və onun irəli sürdüyü ideyalara qarşı yönəlmiş əksüləməllərin mürəkkəb məcmusudur və təməl prinsiplərdə onlar arasında azacıq fərq belə yoxdur".

Buna görə də deyilənlərə nəzərən postmodern fəlsəfə həqiqətin inkarı, qayda və prinsiplərin inkarı, realizmə qarşı çıxmaq kimi ünsürləri özündə birləşdirən mürəkkəb anlayış kimi başa düşmək olar (Hüseyn Əli Nuzəri, "Surətbəndiyi-modernite və post modernite", səh. 29-30).

Bəziləri postmodernizm sözünün ilk dəfə işlənməsinin 1970-ci ilə təsadüf etdiyi və britaniyalı incəsənət xadimi John Watkins Chapman tərəfindən işlədildiyini bildirirlər. Amma digərləri bu sözün ilk dəfə 1939-cu ildə Arnold Toynbee tərəfindən işlənməsi fikrini irəli sürürlər. Bu termin sonralar 1960-cı ildə sənətşünaslar və tənqidçilər tərəfindən də işlədilməyə başlamışdır (Seyid Əhməd Rəhnümayi, "Qərbşünaslıq", səh. 196).

Fəlsəfənin, ədəbiyyatın, sənətin, arxitekturanın və bir çox başqa sahələrin öz postmodernizm anlayışları mövcuddur və intellektual əməyin ən müxtəlif sahələrində postmodernizm barədə ciddidən tutmuş yumor səviyyəsinə qədər söz-söhbətlər, mübahisələr aparılmaqdadır.

**Postmodernizmin ən mühüm prinsip və xüsusiyyətləri**

Postmodernizmin əslində mövqeyinin prinsiplər silsiləsini göstərən məzmun xüsusiyyətlərindən aşağıdakıları qeyd etmək olar:

**1. Sabit və obyektiv həqiqətin inkarı;**

Bu prinsip postmodernizm düşüncəsi ilə o qədər iç-içədir ki, bəzi hallarda postmodernizmi inancların obyektiv standartlarının inkarı hesab edirlər. Bu əsasa görə, bütün sahələrdə, incəsənət, ədəbiyyat, insanşünaslıq və s. belə bir sual ortaya çıxacaq ki, həqiqi və obyektiv məsələ, yaxud obyektiv həqiqət haqqında anlayış var, ya yox? Cavab olaraq demək lazımdır ki, postmodernizm obyektiv həqiqət haqqında hər növ anlayışa tənqidi yanaşır və çalışır ki, inancın heç bir həqiqi və obyektiv ölçüsü olmadığını açıqlasın. Nitçenin 1887-ci ildə dediyi "Allah öldü", "xristianlığın tanrısına etiqad artıq inandırıcı deyil" kimi sözləri postmodernistlərə xoş gəlib. Buna görə də bir postmodern cəmiyyətdə heç bir prinsip mövcud deyil və heç bir kriteriya ümumi və məqbul deyil. Belə bir cəmiyyətin əsası əsassızlığıdır.

**2. Hər növ qneseologiyaya qarşı tənqidi yanaşma;**

Postmodernizm insan xarakterinə, tarixə, ilahiyyata, metafizikaya tənqidi yanaşması baxımından izah oluna bilər. Bəzi postmodernizm tərəfdarlarına görə, postmodernizmin aydın tənqidi yönü bu fəlsəfənin əsas ünsürüdür. Əslində postmodernizm tənqidi təfəkkür üçün ümdə dəyər nəzərdə tutmuşdur.

**3. Hər növ fikr, əqidə və düşüncənin ümumiliyinin inkarı;**

Lyotard (Jean-François Lyotard) postmodernizmi izah edərkən bildirir ki, artıq ümumi, cahanşümul bir əqidə və rasionallıqdan danışmq olmaz. Çünki ümumi və qlobal zəka əsla obyektiv reallıq deyil. Postmodern düşüncədə söhbət bundan gedir ki, plüral zəkalar, görüşlər və düşüncələr haqda danışılmalıdır. Beləcə postmodern dünyada obyektiv dünyaya etiqadın olmaması, ümumi və ya qlobal, fəlsəfi əsaslandırmalara, izahlara inamsızlıq və hər növ legitimliyə etimadsızlıq mövcuddur (Seyid Əhməd Rəhnümayi, "Qərbşünaslıq", səh. 199-201). Əslində postmodernizmin tənqidi təfəkkür üçün nəzərdə tutduğu ümdə dəyər, modernizm fəlsəfəsində bəzi məsələlərlə bağlı təsdiq olunan səbəbiyyət və əhatəliliyi, həmçinin bütünlük və qətiliyi rədd edir. Məsələlərin inkarı ilə bağlı bu növ tənqidi təfəkkür skeptisizmə gətirib çıxarır.

**4. Plüralizm;**

Sxolastik bəhslərdə özünəməxsus yeri olan mühüm məsələlərdən biri də plüralizmdir. "Plüral" sözü lüğətdə müxtəlif tərkibli, müxtəlif cinsli, yekcins olmayan, cəm mənalarında işlənmişdir. Plüralizm isə çoxluq, müxtəliflik və kəsrət fəlsəfəsidir. Plüralizm müxtəlif sahələrdə müxtəlif şəkillərdə işlənir. Bütün bunların hamısının müştərək cəhəti çoxluğun təklik qarşısında, kəsrətin vəhdət, bir növ inhisarçılıq qarşısında rəsmi olaraq tanınmasıdır (inhisarçılara görə, nicat, kamillik və ya dinin son qayəsi kimi qavranılan digər hər şey inhisarlı şəkildə xüsusi bir dində mövcuddur, yaxud buna xüsusi bir dinin vasitəsilə nail olmaq olar. Digər dinlərdə də həqiqətlər var.



Amma yalnız bir haqq din var ki, bizi xilas edib mənzilbaşına çatdıra bilər). (Əli Rəbbani Gülpayqani, "Dini plüralizmin təhlil və tənqidi", səh. 36)

Plüralizmin kökü fərdlərin qneseologiyasından, dünyagörüşündən gəlir və oradan da dinə, məzhəbə keçmişdir. Başqa sözlə, plüralizmin mənşəyi dünyagörüşündədir. Yəni, əgər kimsə qneseologiyada və dünyagörüşündə həqiqətin nisbiliyinə və ya dərkin nisbiliyinə inansa, dində də nisbiliyə və plürallığa düçar olacaq (Cavadi Amuli, "Dinşünaslıq", səh. 207).

Plüralizmin bir növü də dini plüralizmdir. Bu fikirdə olanlar hesab edirlər ki, həqiqət və xilasolma xüsusi bir dinə xas deyil. Bütün dinlərin bu həqiqətdə payı var. Nəticə etibarilə onların hər hansı birinə itaət nicat tapmağa, xilas olmağa səbəb ola, ardıcıllarının kamillik amili ola bilər. Başqa sözlə desək, əslində həqiqətlər müxtəlif olsa da, bütün etiqadlar və dinlər təzadlı olsa da hamısı həqiqətdir və hamısı düzgün və dürüstdür (Yenə orada, səh. 185). Demək olar ki, plüralizmin əsasları və prinsipləri skeptisizm və səfsətəçilikdən törəyib. Çünki onlara görə vahid və mütləq həqiqəti əldə etmək olmaz. Kim nəyi dərk edirsə, anlayırsa, o da həqiqətdir. Bu məktəbin tərəfdarları hər bir şeyin həqiqətini intəhasız hesab edirlər və düşünürlər ki, məhdud insan və eləcə də digər məhdud varlıqlar sonsuz gerçəkləri, intəhasız həqiqətləri dərk edə bilməzlər (Yenə orada, səh. 211).

**5. Keçmiş inanclara qarşı kəskin şübhə;**

Postmodernizmin digər xüsusiyyətlərindən biri də qədim və ənənəvi inanclara şəkk-şübhə ilə yanaşmaqdır. O cümlədən, iqtisad, əxlaq, metafizika, sxolastika, pedaqagika, təlim-tərbiyə və s. Postmodernizm özündən öncə öz təsdiqini tapmış bütün bu inancları tənqid bazarına çıxarır, skeptisist münasibət bəsləyir və bir çoxlarını da kökündən rədd edir (Əkbər Əhməd, "İslam və postmodernizm", 37).

## Din və postmodernizm münasibətləri

Öncə də dediyimiz kimi, postmodernizmin mahiyyəti elədir ki, ona müxtəlif, fərqli yanaşmalar var. Buna görə də din və postmodernizm münasibətləri ilə bağlı da fərqli yanaşmalar mövcuddur. Bəzi nəzəriyyəçilər tərəfindən postmodernizm, bir çox hallarda postmodernist fəlsəfə tanrıların, din allahlarının ölümü kimi qələmə verilir. Amma bəzilərinə görə isə bu məktəb ənənəvi imana, ənənəvi imanın zərurətlərinə qayıdış prinsiplərini ehtiva edirmiş kimi qiymətləndirilir. Üçüncü qrupa görə isə belə bir fəlsəfədə dini ideyaların yenidən işlənməsinin mümkünlüyü unudulmuşdur (Mark C. Taylor, Reframing Postmodernism Shadow of Spirit Postmodernism And Religion, Edited By Philla Berry And Andrew Wernick (London And Newoyork: Routledge 1992)P. 11). Digər tərəfdən isə dindarların da postmodernizmə baxışı o qədər də birmənalı deyil. Bəzi dindarlar postmodernizmi inkar etmək fikrində olmuşlar. Bəziləri isə onu qəbul etmiş və çalışmışlar ki, din təlimləri ilə postmodernizm əsasları, təməl prinsipləri arasında bir növ uyğunluq, səsləşmə yaratsınlar. Yaxud heç olmazsa, dini yeni postmodernist meyarlara uyğun şəkildə təqdim etsinlər və onu postmodernizmə uyğunlaşdırsınlar (Hüseyn Əli Nuzəri, "Surətbəndiyi-modernite və post modernite", səh. 407). Qarşıda postmodernizmin xüsusiyyətlərini diqqətinizə çatdırdıq və qeyd etdik ki, postmodernizmin prinsipləri, mövqeləri, baxışları bir növ sabit və dəyişməz əsaslara, məzmunlara qarşı inamsızlıq üzərində qurulmuşdur. Postmodernizmə görə, bəşəri düşüncə xarakter etibarilə heç bir dəyişməz və sabit prinsipə malik deyil. Bu baxımdan dini təfəkkür də eynilə bəşəri düşüncə kimi dəyişikliyə, təkamülə məruz qalır. Əslində modernizm və postmodernizm arasında müştərək cəhətlərdən biri dini, onun əsaslarını, təməl prinsiplərini tənqid etmək siyasətidir. Modernizmin insan müstəqilliyini, azadlığını təmin etmək, insani gerçəkləri, istedadları üzə çıxarmaq, həmçinin insan təmayüllərinin, arzu və amallarının gerçəkləşməsinin təmin edilməsi adı ilə din və onun prinsipləri, əsasları sahəsində həyata keçirdiklərini postmodernizm də daha geniş şəkildə davam etdirir. Bu baxımdan dinə və din təlimçilərinə tənqidi yanaşma modernizm və postmodernizm arasında müştərəq məqamdır. Modernizm və postmodernizm məhz bu nöqtədə qovuşur və bir hədəfə zərbə endirirlər. Beləcə postmodernizm əsla bütün dinlərin kökündə duran realist və gerçəkliyi əsas götürən xüsusiyyətə malik dini əks etdirə bilməz. Əslində postmodernizm prinsiplərinə, xüsusiyyətlərinə əsasən dini ümumi dünyagörüşü və qlobal görüş olaraq bir kənara qoyur. Bu təfəkkür tərzindən ortaya çıxan nəticə nisbilik və plüralist mövqedir ki, fikir adamları tərəfindən müxtəlif mövqelərin meydana gəlməsi, fərqli münasibətlərin sərgilənməsinə səbəb olmuşdur (Seyid Əhməd Rəhnümayi, "Qərbşünaslıq", səh. 158-159).

## Postmodernizm və İslam

İslam və postmodernizm arasında əlaqəyə gəldikdə isə bəlli olan budur ki, İslamda bəzi anlayışlar olduqca qəti, kəskin və müqəddəs şəkildə verilmişdir. Belə ki, onun prinsip və təlimlərini qəbul etmək haqqında heç bir şübhə yoxdur. Bir halda ki, postmodernizm hər növ qəti və müqəddəs anlayışı inkar edir. Digər tərəfdən isə postmodernizm dinə, məqbul inanclara, etiqadlara nisbi və tənqidi yanaşır və bu, islamda mövcud olan sabit və qəti anlayışlarla ziddiyyət təşkil edir (Hüseyn Əli Nuzəri, "Surətbəndiyi-modernite və post modernite", səh. 413). İslam, tövhid prinsipi üzərində qurulan və özünü haqq din adlandıran, əlbəttə, yeganə haqq din kimi təqdim edən dindir. Xilas olmağı, bağışlanmağı, hidayəti yalnız öz təlimlərində görür və təbii ki, hər növ vəhdətə, vahid quruluşa, xilaskarlığı və nicatı inhisara salmayan, hər növ vahid mehvərə, əsasa zidd olan düşüncəyə qarşıdır və bu mənada heç bir barış nöqtəsi qalmır. Postmodernizm ideyası vəhdətə qarşı olduqda, xilas olmağın yolunu bir yox, minlərlə yolda gördükdə, hər növ doğruçuluğa qarşı çıxdıqda, gələcək haqda hər növ məlumatı rədd etdikdə başlıca prinsiplərindən biri məad və kökü gələcəyə gedib çıxan digər məsələlər olan islamla bir yerə necə sığa bilər? Əslində həqiqətin mövcud olmadığını iddia edən bir təfəkkür islama uyğun ola bilməz. Heç bir vəchlə demək olmaz ki, heç bir etibarlılığı qəbul etməyən təfəkkür tərzi dinlə səsləşir (Seyid Cavad Səccadi, "İslamda modernizm və postmodernizm", səh. 124).

Demək, qısaca deyə bilərik ki, bu xüsusiyyətlər haqqında azacıq düşündükdə onların İslam təlimləri, bütün monoteist və ilahi dinlərlin əsasları ilə təzad təşkil etdiyini görürük. Bütün dinlər dünyanın həqiqətlərini, onun son qayəsini açıqlamaq və bəşəri ona doğru yönəltmək məqsədi daşıyır və bu məqsədlə sabit və şübhəsiz təlimlər, əsaslar ortaya qoyurlar. Dini təfəkkürə, xüsusilə islam dininə görə, bütün məsələləri nisbi və şərti hesab etmək olmaz. Müxtəlif dinlər daim insan üçün ilahi dünyagörüşünü izah etmişlər. Nisbiliyə meyl və bütün dəyər və normaları inkar etmək islam və digər dinlərdə əsla qəbul oluna bilməz. Həmçinin postmodernizmə hakim olan plüralizm və müxtəliflik monoteist dinlər, xüsusilə də islam tərəfindən kəskin tənqid olunur. Digər tərəfdən postmodernist məfkurə daxili ziddiyyətə malikdir. Bu təfəkkürdə önə çəkilən prinsiplər (plüralizm, həqiqətin inkarı) özünü rədd etməyə kömək edir. Çünki dünyada heç bir sabit həqiqətin olmaması sözü onların baxışına da şamil olur. Buna görə də postmodernizm həqiqəti əks etdirmir və onu qəbul etmək olmaz.

İrdark



# HƏZRƏT İSA PEYĞƏMBƏRİN (Ə) TÖVSİYƏLƏRİNDƏN

**Bu günlərdə bütün xristian dünyası Hz. İsa peyğəmbərin doğum gününü qeyd edir. Əlbəttə, Hz. İsa (ə)-ın şəxsiyyətinə baxışda müsəlman və xristianlar arasında ciddi fərqlər olsa da, Hz. İsa müsəlmanlar üçün də müqəddəs şəxsiyyətdir, Ulul-əzm, yeni din və şəriət gətirmiş peyğəmbərdir. Allah təala Hz. İsanı Qurani Kərimdə "Ruhullah" kəlamı ilə, yəni Allahın ruhu deyə tanıtdırır, atasız olaraq, Allahın möcüzəsi olaraq doğulduğunu təsdiq edir. Hz. İsanın əsl doğum tarixi müsəlman təqvimlərinə əsasən dəqiq bəlli olmasa da(xristianların qeyd etdiyi tarixin dəqiq olmadığı çoxdan bəllidir), hər halda bu günlərdə Hz. İsanın bütün dünyada xatırlandığını nəzərə alaraq müsəlman mənbələrindən o həzrətin dilindən olan bəzi nəsihətləri diqqətinizə çatdırırıq.**

Məgər Tövratda sizə edilmiş bu tövsiyələri eşitməmisinizmi: «Qohumlarınızla sıx əlaqə saxlayın və onlara qarşılıqlı surətdə yaxşılıqlar edin». Mən sizə deyirəm: sizdən əlaqəsini kəsənlərlə rabitə qurun, sizdən əsirgəyənlərə hədiyyə edin, sizə pislik edənlərlə yaxşı davranın, sizi söyənlərə salam verin, sizinlə düşmənçilik edənlərə qarşı ədalətli və insaflı olun, sizə zülm edənləri bağışlayın. Necə ki, pis rəftar etdiyiniz adamların da sizi bağışlamalarını istəyirsiniz. Allahın mərhəmətindən ibrət alın. Görmürsünüzmü ki, Günəş sizlərdən həm pislərə, həm də yaxşılara eyni dərəcədə işıq saçır. Yağış həm əməlisalehlərin, həm də günahkarların üzərinə eyni bərabərlikdə yağır.

Sizin ürəyiniz xəzinələrinizin olduğu yerə sarı yönəlib. Ona görə də insanlar öz sərvətlərini sevir və ona ürəkdən bağlanırlar. Siz öz xəzinələrinizi səmada yerləşdirin ki, orada onları nə qurd-quş yeyər, nə də oğru aparar. (Yəni xeyir əməllər edin və savabını Allahın dərgahında əmanət qoyun. Yaxud mal-dövlətinizi ehtiyaclılara paylayın və bunun savabını Allahın dərgahında əmanət buraxın).

Əkin torpağın üzərində bitər, daşın yox. Eləcə də hikmət təvazökar qəlbdə yerləşər, təkəbbürlü, zalım qəlbdə yox. Bilmirsinizmi ki, hər kəs başını tavana vursa, başı yarılar? Amma hər kim başını tavandan aşağı əysə, onun kölgəsi altında durub bundan faydalanar. Kim Allahın qarşısında təvazökarlıq etməsə, Allah onu əzib xar edər. Hər kim Allahın qarşısında təvazökar davransa, Allah onu ucaldar. Hər tuluğun içinə bal tökmək olmaz, hər qəlbi də hikmət məkanı etmək olmaz. Dəri quruyub aşılanmayınca bal üçün qab kimi istifadə edilə bilməz. Ürək də şəhvət və tamahdan aşılanmayınca, yaxşı xüsusiyyətlərlə təmizlənməyincə orada hikmət qərar tutmaz.

Əgər bir evə od düşsə, başqa evlərə də keçər və çoxlu evi bürüyər. Yalnız birinci yanmağa başlamış evi müəyyən edib uçursalar, alov zəifləyər və onu söndürmək mümkün olar. Zalım da belədir. Əgər bir kəs zülm etməyə başlasa, onun qarşısını alsalar, arxasınca heç kim zülm törətməyə cəsarət etməz.

Hər kim öz (din) qardaşını sancmağa hazırlaşan ilanı görsə və qardaşını bundan xəbərdar etməsə, ilan da onun qardaşını sancıb öldürsə, həmin adam bu qətldə şərik olmaq məsuliyyətindən kənarda qalmaz. Eləcə də hər kim öz qardaşının günah etmək istədiyini görsə və onu çəkindirməsə, qardaşı da həmin günahı etsə, o adam həmin günahda şərik olmaq məsuliyyətindən özünü kənara çəkə bilməz. Kim zalımın zülmünün

qarşısını ala bildiyi halda bunu etməsə, zülmdə ona şərik kimidir. Zalım öz zülmündən necə çəkinsin ki, o, sizin aranızda asudə halda yaşayır, ona maneçilik edən, qabağını alan yoxdur. Zalımlar necə məğrur gəzməsinlər ki, sizin sözünüz budur: «Mən özüm zülm törətmirəm, amma kim zalımlıq edirsə-qoy etsin».

Ey dünyaya aludə olanlar! Gündüz vaxtı çıraq yandırırsınız, halbuki Günəşin işığı sizə bəs edər. Qaranlıqda isə çırağı əlinizdən yerə qoyursunuz, halbuki çıraq bundan ötrü yaradılıb. Siz dünya işlərinizdə elm nurundan istifadə edirsiniz. Amma dünya onsuz da əlinizdədir. Axirətdən ötrü isə elmin nurundan faydalanmırsınız, halbuki elm sizə bundan ötrü verilib. Deyirsinz ki, axirətin mövcudluğu həqiqətdir, amma dünyanı bəzəməklə məşğulsunuz. Deyirsiniz ki, ölümün mövcudluğu həqiqətdir, amma ondan qorxub qaçmağa çalışırsınız. Deyirsiniz ki, Allah hər şeyi eşidir və görür. Amma qorxmursunuz ki, O, sizin bütün günahlarınızı sayır.

Əgər bir miniyə minməsələr, onu əhliləşdirib təlim verməsələr, işlətməsələr, qudurğan və bədxasiyyət olar. Ürəklər də ölümü xatırlamaqla yumşalmasa, ardıcıl ibadətin çətinliyini duymasa, daşlaşar. Damına çıraq bərkidilmiş, amma içərisi qaranlıq qalmış evin nə faydası var? Siz də dilinizdə (sözünüzdə) olan elm nurundan bəhrələnməzsiniz – nə qədər ki, içəriniz bu nurla dolmayıb. Tələsin, qaranlıq evinizi işıqlandırın! Tələsin, qəlbiniz günahların təsirindən paslanmayınca və daş kimi bərkiməyincə, onu hikmət vasitəsilə yumşaldın! Zəif insan ağır yükü necə çəkə bilər? Bəs, Allahdan bağışlanmaq diləməyən adamın günahları necə silinər? Yuyulmamış paltar necə təmizlənər? Bəs, günahlarına görə cərimə (əvəz) verməmiş adam günahdan necə xilas olar? Gəmisiz dəryada üzən adam necə nicat tapar? Bəs, çalışqanlıq göstərməyən adam dünyanın fitnələrindən necə amanda qalar? Ya bələdçisiz yola çıxan adam mənzilə necə çatar? Din təlimlərini öyrənməmiş adam behiştə necə yol tapar? Bəs, Allaha itaət etməyən şəxs Onun razılığını necə qazanar?

Dənizdə gəmi batsa, bundan dənizə heç bir əskiklik gəlməz və suyu azalmaz. Sizin itaətsizliyinizin də Allaha heç bir ziyanı olmaz, bunun ziyanı yalnız sizin özünüzə yönələr. Siz yalnız özünüzə zərər yetirərsiniz. Günəşin şöləsi hər nəyə düşsə də, bundan Günəşə nöqsan gəlməz; o öz parlaqlığında qalar. Eləcə də Allah sizə nə qədər ruzi versə də, heç nəyi əskilməz. Amma siz Allahın ruzisi ilə sevinər və yaşayarsınız. Hər kim şükr etsə, Allah ondan ötrü ruzini artırar. Çünki O, şükrləri qiymətləndirən və hər şeyi biləndir.

Xəstə adam dadlı xörəyə baxar, amma onun ləzzətini hiss edə bilməz, ağrıdan nalə çəkər. Dünyaya aludə olmuş adam da ibadətin ləzzətini duymaz, onun şirinliyini anlamaz, yalnız mal-dövlət sevgisini hiss edər. Xəstə adam bacarıqlı bir həkimin dilindən öz xəstəliyinin qorxulu olmadığı barədə sözləri sevinclə dinləyər və ümidi artar. Amma dərmanın acılığını dadan kimi ümidi sönüb gedər. Dünya əhli də bu dünyanın ləzzət və nemətlərini dadıb sevinər. Amma qəfil ölümü yada salanda sevincdən əsər-əlamət qalmaz.

Ulduzlara baxan hər adam onların vasitəsilə yolu tapmağı bacarmaz, yalnız ulduzların hərəkətini bilən, mənzillərini tanıyan adam bunu bacarar. Sizlər də hamınız elm öyrənirsiniz. Amma bu elmi əməldə tətbiq etməyən adam onun vasitəsilə hidayət olmaz.

Xoşladıqlarınızı tərk etməyi bacarmayınca axirət şərəfinə nail olmazsınız. Sabahın tövbəsinin intizarını çəkməyin. Çünki sabaha hələ bir gecə-gündüz qalır. Allahın qəzavü-qədəri də həmin gecə-gündüzü bürüyüb.

Kiçik günahlar şeytanın tələləridir, onları sizin gözünüzdə xırda və əhəmiyyətsiz göstərər. Amma sonra bu kiçik günahlar birləşib böyüyər və sizi bütünlükdə əhatə edər.

Hər kim əkin yerini alaqdan təmizləməsə, alaq çoxalıb məhsulu bürüyər və məhsul zay olar. Eləcə də hər kim ürəyindən dünya sevgisini çıxarmasa, artıb çoxalar və ürəyində axirət sevgisinə yer qalmaz.

Dediyiniz hər pis kəlməyə görə qiyamətdə sizə cavab veriləcək. Qurban kəsmək istəyən adamın yadına düşsə ki, qardaşı ondan narazıdır, gərək əvvəlcə gedib qardaşını razı salsın, sonra qurbanı kəssin.

Unu buraxıb, qabıqları özündə saxlayan ələk kimi olmayın. Yəni hikməti dilinizdən çölə töküb, kin-küdurəti ürəyinizdə saxlamayın! Əvvəlcə ürəyinizdən pislikləri uzaqlaşdırın, sonra orada yaxşılıqları yerləşdirməyə çalışın. Əgər pisliklə yaxşılığı qarışdırsanız, xeyir qazanmazsınız.

Sizə deyirəm: Yalnız xoşlamadığınız hadisələrə səbr etməklə xoşladıqlarınıza nail ola bilərsiniz. Yalnız şiddətlə istədiyiniz şeydən uzaq durmaqla istədiyinizi əldə edə bilərsiniz.

Su alovu söndürdüyü kimi, səbr də qəzəbi aradan götürər...

Hədislər Ibn Şöbə Hərraninin «Tühəfül-üqul» kitabındandır (səh. 534-552).

# DOKTOR ƏLİ ŞƏRİƏTİ



XX əsrdə İslam dünyasını öz mütərəqqi təfəkkürünün ziyası ilə nurlandıran mütəfəkkirlərdən biri də Dr. Əli Şəriəti olmuşdur.

**İranda dünyaya gəlmiş bu ziyalının fikirləri ölkəsinin sərhədlərini kilometrlərcə aşaraq müxtəlif ölkələrdə yaşayan həqiqət aşiqlərinin düşüncələrinə sızmış və şüurlarda köklü reformasiyalara səbəb olmuşdur.**

Şəriəti uşaqlıq və gənclik illərində öz yaşıdlarından əsaslı surətdə fərqlənmirdi. Öz həmyaşıdları kimi məktəbə getmiş, dəfələrlə imtahan həyəcanı ilə üzləşmiş, öncə ibtidai, daha sonra isə orta təhsil mərhələsini geridə qoymuşdu. Digər fənlərlə yanaşı, dini elmlər və ərəb dili də onun öyrəndikləri sırasına daxil idi.

Təhsil aldığı litseyi bitirdikdən sonra müəllimlik sənətinə vurğunluğu onu "Ali Müəllimlər Məktəbi"nə istiqamətləndirmişdi. O dönəmdə bu təhsil müəssisəsi, müxtəlif səbəblərlə əlaqədar olaraq universitetə qəbul olunmayan gəncləri müəllimlik məsləyinə hazırlayan elm ocağı idi. Şəriəti bu illərdə kitab tərcümə edə biləcək səviyyədə ərəb və fransız dillərini mənimsəmişdi. Əbuzər barəsində ərəb dilindən və dua barəsində isə fransızcadan tərcümə etdiyi kitablar onun həm dillərə yiyələnmə səviyyəsindən, həm də düşüncə üfüqlərinin genişliyindən xəbər verir. Tərcümə etdiyi kitabların ön sözü də mütərcimin özü tərəfindən qələmə alınmışdır. Tərcümə əsnasında Şəriəti İslamın ləkəsiz və qatqısız qaynaqlarına yönələ bilmişdi. Peyğəmbər (s)-in və Ondan sonrakı din böyüklərinin həyat tərzləri və sosial fəaliyyətlərinin dövrün ictimai problemlərinin işığında təhlil edə bilməsi də məhz nəticə etibarı ilə bu yönəlişin təsiri altında olmuşdu. Bütün bunlar isə şübhəsiz ki, gəncliyə öz müsbət təsirlərini göstərmişdi.

Dərs deməyə tələbə olduğu illərdən başlamışdı. Fikri yöndən elə bir səviyyəyə yüksəlmişdi ki, onun hələ indidən daşıb kənara töküldüyünü hər kəs görə bilirdi.

İstedadlı və bacarıqlı olması ətrafındakı münbit mühit və hər şeydən əvvəl isə İslamın qatqısız qaynaqlarına duyduğu səmimi inanc düşüncə və davranışında iffət ilə birləşərək uca qayəsinə qovuşmaq üçün onu bütün imkanlara sahib etmişdi.

Şəriəti bu dövrdə Şimali Afrikadan İndoneziyaya qədər yayılan və bağrında mövcud durumu dəyişdirmə istiqamətində möhtəşəm fəaliyyətləri əks etdirən anti-imperialist hərəkatlarla maraqlanmağa başlamışdı. "Tarix Fəlsəfəsi" ilə əlaqədar olan məsələlər də onu ciddi düşündürürdü.

Məşhəd şəhərində fəaliyyət göstərən "İslami Həqiqətləri Tanıma Mərkəzi" onun bura gəlişi ilə daha da canlandı. Onun şəxsiyyətinin daha da formalaşmasına təsir göstərən bu müəssisədə o yalnız sualları cavablandırmaqla kifayətlənmir, həm də müxtəlif mövzularda söhbətlər təşkil edirdi.

Daha başlanğıcdan etibarən intellektual inkişafın və inancı dərinləşdirmənin vasitəsi olaraq gördüyü yararlıq fəaliyyətinə və çıxışlara böyük önəm vermiş, çevrəsindəkilər isə seçkin və güclü qələmi ilə bu çalışmalarını davam etdirmək üçün onu davamlı təşviq etmişdilər.

Özünün şəxsiyyət kimi formalaşmasında atası Mühəmməd Təqinin oynadığı rolu belə ifadə edir: "Mənəviyyatımı ilk olaraq biçimləndirən atamdır. Mənə düşünmə və insan olma sənətini yenə də ilk olaraq öyrədən odur. Anam məni süddən kəsər-kəsməz, atam mənə hürriyyət, əsalət, saflıq, səbat, iffət və insan duyğuları verməyə başladı. Məni dostları ilə, yeni kitabları ilə o tanış etdi. Kitablar təhsilə başladığım ilk gündən etibarən ən sadiq dostlarım oldu. Onun bütün həyat və ailəsi demək olan kitabxanasında böyüdüm. Böyüdükdən sonra böyük zəhmətlər sərf edərək öyrənə biləcəyim şeyləri o mənə uşaqlığımda asanca ərməğan etdi.

Atamın kitabxanası indi mənim üçün qiymətli xatirələrlə dolu bir dünyadır. Bütün kitabxanalarımı xatırlaya bilirəm.

Mənim üçün sevinc dolu, gözəl, ancaq uzaq keçmişin toplamı olan bu şirin otağı çox sevirəm".

Louis Massignon, iranlı elm adamı və siyasətçi M.Əli Fəraqi, fransız ərəbşünası və sosioloqu Jasques Berquenin də bu şəxsiyyətin dünyagörüşünün formalaşmasında əvəzsiz xidmətləri danılmazdır.

1956-cı ildə Məşhəd şəhərində qapısını tələbələrin üzünə açan ədəbiyyat fakültəsinə ilk qeyd olunanların siyahısında onun da adına rast gəlmək mümkündür.

Dərslərdə tələbələrin böyük çoxluğu kimi susqunluğu seçmədi, aktivliyə üstünlük verdi. Bu yeni çalışma, araşdırma, düşünmə və müzakirə mühitindən daha da faydalanaraq fikirlərini daha da şaxələndirir, "Dinlər tarixi"nə yönəlir, Toynbeenin "Tarix Fəlsəfəsi"ni şübhə ilə qarşılayaraq onu bir çox baxımdan tənqid edir.

Siyasi dairələrdən asılı olmayan Şəriəti hər şeydən əvvəl həqiqəti və ədaləti müdafiə etməkdə qərarlılığı və xalqın həyatını təsirə məruz qoyan dini, ictimai və siyasi hadisələrə qarşı duyduğu maraq ilə öz inanc və düşüncələrindəki müstəqilliyi göstərmiş oldu.

O dövrlərdə mövcud olan ölüm sükutu içində belə, xəttindən ayrılmamışdı. Söhbətləri, yazıları və mövcud vəziyyəti dəyişdirmək istiqamətində gördüyü işin nəticəsi olaraq haqqında sənəd hazırlandı. Lakin buna baxmayaraq o susmağa və cəmiyyətdə qurulan bəyənilməz olan nizamla razılaşmağa qarşı çıxdı.

Eyni anda iki cəbhədə birdən savaş açdı. Bir yandan öz çevrələrində bir hörümçək toru hörən, cami və mədrəsələrdə bir küncə çəkilib, ictimaiyyət içində hər tipdən olan intellektual inkişafa qarşı bəyənilməzlik nümayiş etdirənlərlə, digər tərəfdən isə yeni sxolastizmi özlərinə sığınacaq edən kök-

süz və təqlidçi ziyalılara qarşı vuruşmalı oldu. Bu qruplar cəmiyyətlə, xalqla bütün bağlılıqlarını qopartmış və zəmanənin eybəcərliklərinə göz yummuşdular.

Sorbon Universitetində sosiologiya istiqamətində təhsilini davam etdirdi. Həyatının Fransa illəri Qərb cəmiyyətinin təməl ünsürlərini daha geniş şəkildə anlamasına yardımçı oldu. Franz Fanon kimi inqilabçıların düşüncələri ilə tanış oldu. Fanon, Qərbdən kənarda yaşayan insanların hər hansı bir inqilabı gerçəkləşdirmələrinin ancaq mövcud dinlərindən vaz keçmələri ilə mümkün ola biləcəyini düşünürdü. Şəriəti bu fikirlərin əsassız olmasını irəli sürdü və imperialistlərə qarşı mübarizə üçün qərbli olmayan insanların dörd əllə öz mədəni və dini köklərinə yapışmağı mücadilənin ən mühüm şərti kimi irəli sürdü. O, həm də bu iddiada idi ki, bir kəsin öz əsl kökünə dönməsində məqsəd irqi mənsubiyyətinə deyil, mədəni kimliyinə qayıtmasıdır.

O yazırdı: “İslamiyyət iranlıların İslamiyyətdən əvvəlki mədəniyyətləri ilə əlaqəsini kəsdiyindən “kökümüzə yenidən dönək” deyildikdə İslamdan əvvəlki mədəniyyətə yox, İslami mədəniyyətə dönüş nəzərdə tutulmalıdır” .

Paris Universitetində keçirdiyi 5 il həm çalışmalarını davam etdirməsinə, həm də İranda əldə edilməsi müşkül olan kitablarla tanış olmasına vəsilə oldu. Burada Şəriəti ictimai və fəlsəfi düşüncə axımlarını, Bergson, Camos, Sartr, Schnartz kimi yazar və mütəfəkkirlərin, Gurtvisch, Berque kimi sosioloqların və Massignon kimi islamşünasların əsərlərini öyrənmə və incələmə imkanı əldə etdi.

Tədqiqatlarını sosiologiya və İslam araşdırmaları istiqamətində sürdürməyi qət edən sosioloqun düşüncələrinə fransız ictimaiyyətşünaslığı sezilə biləcək dərəcədə təsir etdi.

Onun Fransada yaşadığı zamanlarda Şimali Afrikada, Əlcəzairdə öz dövrünün ən gurultulu inqilablarından biri yaşanmaqda idi.

Fransız psixoloqu Franz Fanon bu illərdən birində Əlcəzair təbəəliyini qəbul edərək inqilabçıların sıralarına qatılmışdı. Nəticədə Fanon “Yer üzünün lənətliləri”, “Əlcəzair inqilabının 5 ili” kimi əsərlərini qələmə aldı. Jean Raul Sartre onu kəşf edib avropalılara tanıtmışdı. Lakin onu tam anlamıyla Şəriəti 1962-ci ildə və ilk olaraq Avropada iranlı tələbələrin nəşr etdikləri bir məcmuədə incələmişdi. Şəriəti Fanonun “Yer üzünün lənətliləri” adlı əsərini İranı dəyişmək üçün mücadilə edənlərə təqdim olunmuş dəyərli ərməğan kimi qiymətləndirirdi. Onun nəzəriyyələrini daha da təkmilləşdirərək eyni zamanda kitablarında rast gəldiyi fikirlərin bəzisini də fars dilinə çevirməklə Fanonun düşüncə və yaxınlaşma tərzinin İran xalq hərəkatına əks olunmasını mümkün etmişdi.

Afrikalı inqilabçıların bəziləri məhz Şəriəti tərəfindən İran xalqına tanıdılmışdı. “Əfzəlul-Cihad” adlı əsərin müəllifi Ömər Uzqan məhz belə inqilabçılardan biri idi.

Şəriətinin mühüm özəlliklərindən biri də bu idi ki, o, cəmiyyətlə əlaqədar olan incələmə və anlayışlarını rəsmi və şəkli olan elmi-sosioloji prinsiplərə deyil, cəmiyyətlə əlaqədar olan aktual məsələlərə söykəmişdi.

Parisdə doktoranturanı tamamladı. Digər universitet tələbələri kimi bu illərdə o yalnız dərsə qapılmaqla kifayətlənmədi. İranda bu dövrlərdə azacıq davam edən azadlıq rüzgarından sonra zülmlər ağır həbs cəzaları, qeyriminsani davranışlar, vəhşətlər xalqa hakim olmuşdu. Həmçinin bütün bunlara baxmayaraq, İran dini hərəkatının əsas qanadı hərəkatın ən mühüm dövrünə qədəm basmışdı. Zülmün ən böyük hədəfi dindarlar və ideologiyasını həyata keçirməyə çalışan “Nehzəti-Azadi” (“Azadlıq hərəkatı”) idi.

“15 Xordad” üsyanı İran İslam hərəkatına yeni bir yön qazandırdı və gerçək mücahidlər digərlərindən tanınar hala gəldi. Şəriəti bu kəskin zamanlarda Fransada olsa da özünü inqilabdan kənarda hiss etmədi və İmam Xomeyninin hərəkatını açıqlayaraq onu əsər şəklində oxuculara təqdim etdi.

Həmçinin Şəriəti və məslək yoldaşları Avropanın fars dilində ən çox oxunan qəzetini nəşr etdilər.

1964-cü ildə özünü hər zamankından daha artıq ölkəsinə, İslam dininə xidmət etməyə hazır hiss etdi, həyat yoldaşını və 2 övladını yanına alaraq İrana dönməyə qərar verdi. Ölkə sərhədlərində ikən xaricdə göstərdiyi siyasi fəaliyyətlə əlaqədar olaraq həbs edildi və həbsxanaya göndərildi. Lakin çox keçmədi ki, həbsdən azad edildi.

Həbsdən sonra Məşhəd Universitetinə professor təyin edildi. Bu dövrdə onun tələbəsi olması ilə universitetin müxtəlif fakültələrindən olan tələbələr qürur duymaqda və dərslərinə son dərəcə kütləviliklə qatılmaqda idilər. Dargörüşlülük, kiçiklik, həsəd və pislik əl-ələ verərək onu əngəlləməyə çalışdı. Məşhəd Universitetinin idarəediciləri onun dərs verməsinə artıq dözməz hala gəldilər.

Şəriəti sərbəst tədris üsullarını ənənəvi tədris metodlarından üstün tuturdu. Gördüyü rəğbət, ipi başqalarının əllərində olanları narahat edirdi. Sonunda istefaya getmək məcburiyyətində qaldı. Yəni işinə son verildi.

1967-ci ildə Tehranda “Hüseyniyyeyi-İrşad”a qatıldı. Görüşlərini xalqa çatdırmaq məqsədi ilə kitablar yazdı, dərslər verdi. 1973-cü ildə verdiyi dərslərin iştirakçısı olmaq üçün 6000 tələbə ona baş vurdu. Bu isə SAVAK-ın marağına səbəb oldu. Yazılarında mövcud rejimə açıqca hücum etmir, üstüörtülü ibarələrdən istifadə edirdi.

SAVAK tələbələri sorğuya çəkərək Şəriətidə günah ünsürü aşkar etmək istəyirdi. Bir nəticə əldə edə bilməyərək onu mürtədlikdə, marksistlikdə, bəhailikdə ittiham etməyə başladılar. “Hüseyniyyeyi-İrşad” bağlandı. Onun haqqında həbs qərarı alındı. Onu əldə etmək üçün yaşlı atasını həbs etdilər. Şəriəti təslim oldu və həbsə atıldı, işgəncələr gördü. Sərbəst buraxıldıqdan sonra yazması və dərs verməsi qadağan edildi. Atası ilə belə görüşməsinə imkan vermədilər.

500 gün ev həbsinə məhkəməsindən əvvəl məruz qalan Doktor sufilik pərdəsi altında gizlənən qoxumuş ünsürlərin davamlı əngəlləmələrinə və maneələrinə baxmayaraq İran xalqını dərindən təsirə məruz qoydu. Yabançı imperialistlərə, həm də yerli düşmənlərə böyük zərbə endirdi.

London kənarındakı evində ölü halda tapıldı və Suriyada öz dövrünün zalımlarını varlığı ilə sarsıdan və İmam Hüseyn (ə)-ın inqilabını çıxışları ilə yaşadan Əli (ə)-ın qızı Hz. Zeynəbin (s.ə) məzarı kənarında torpağa tapşırıldı.

Lakin inanırıq ki, doktor Əli Şəriəti yenidən dirilsəydi belə, məsləyindən uzaqlaşmayacaqdı və dəfələrlə bu yolda şəhid olmağa hazır olardı.

Atasına yazdığı son məktubundan: “Allahın inayəti ilə elə bir yola girdim ki, ömrümün bir anını belə şəxsi xoşbəxtliyim üçün sərf edə bilmərəm. Madam ki, Allahın yardımı mənim zəifliklərimi aradan qaldırır və madam ki, bu ömür bir gün necə olsa bitəcək, elə isə ömrümü bu uğurda sərf etməyimdən daha böyük səadət nə ola bilər?”

*Doktor Əli Şəriəti biz müsəlmanlara özündən sonra böyük bir irs qoyub getmişdir, çünki kitab müəllifin oxucuya mənəvi vəsiyyətidir. Əsərlərində dərin fəlsəfi düşüncələri, sosioloji mövzuları sadə bir dildə qələmə ala bildiyi üçün cəmiyyətin müxtəlif təbəqələri tərəfindən bu kitablar oxunur.*



# Onun fikir dünyasından:

## İKİ BÖYÜK VƏ MƏŞHUR SƏHV

Xanımlar və ağalar! Siz öz gənclərinizi azğınlıq və əxlaqsızlıqda ittiham edirsiniz. Ata-anaların əsas səhvlərindən biri budur. Əksəriyyət bu fikirdədir ki, kişilər qadınlardan, qocalar isə gənclərdən daha düşüncəlidir. Bəzi kişilər məhz kişi olduqları üçün elə güman edirlər ki, dini məclisdə iştirak etmək, hətta bu məclislərdə göstəriş vermək hüququ yalnız onlara məxsusdur. Bu adamlar qadınları elmi və dini tədbirlərdə iştirak etməyə layiq bilmirlər. Hansı ki, həkim və ya müəllimə bir xanım təhsilsiz kişidən daha düşüncəlidir. Məclisimiz dini məclis olduğu üçün mən dindar kişiləri nəzərdə tuturam. Bu insanlar elə başa düşürlər ki, İslam və din yalnız kişilərə aid bir məsələdir və qadın nə qədər savadlı olsa da, kişinin razılığı olmadan, hər hansı bir məclisdə iştirak edib, söz deyə bilməz. Guya onlar evdə qalıb gözləməlidirlər ki, ağa onların dini vəzifələri haqqında nə göstəriş verəcək!

İkinci səhv odur ki, yaşlılar özlərini gənclərdən daha düşüncəli hesab edirlər. Ədəbiyyatdan bir şablon, riyaziyyatdan təkcə bir çötkə, dindən bir neçə ziyarətnamə bilən yaşlı, ali təhsilli, dərin düşüncəli gənci özünə tabe etmək istəyir!

Çox vaxt yüksək məqam sahibi olan alimlər gənc nəslə ehtiyatla yanaşır, mülayim nəsihətlərlə keçinirlər. Amma orta savadlı bir dindar tündlük göstərib, güzəştə getmir.

Zənnimcə, iki müxtəlif məfhum dolaşıq salınır. Pullu olmaq şüurlu olmaq deyil! Yaşlı olmaq düşüncəli olmaq deyil! Hansı əsasla var-dövlətli bir yaşlı adam sadə məktəbli bir qızcığazdan daha düşüncəli hesab olunur?! Cəmiyyətdə tanınmış böyük tacirlər öz təhsilli övladlarından daha ağıllı qəbul edilir. Demək olar ki, bütün yaşlı nəsil gənc nəslə bu gözlə baxır. İctimai və dini tribunalardan danışanlar isə, ağaların xoşuna gəlmək üçün öz sözləri ilə bu yanlış hissləri daha da gücləndirirlər: «Ağa hara, tələbə oğlu hara?!» Ağaya deyilmir ki, «Siz çox hörmətlisiniz, gözümüz üstə yeriniz var, amma savadınız yoxdur. Sizin cılız övladınız daha yaxşı düşünür. Düzdür ona yeriməyi, danışmağı, namazı, dinin əsaslarını, dəstəmaz və qüslü, bir sözlə, hər şeyi siz öyrətmisiniz. Amma indi onun elm və biliyi sizdən üstündür. Bu sayılmayan övlad istənilən bir məsələni analiz edir, sizin babalarınızın xəbərsiz olduğu tənqid isbata cəhd göstərir».

Ey atalar, ey analar! Bu gün Jan Pol Sartr, Marks və Engels, Dekart, Hegel və digər mütəffəkirlərin əsərlərini oxuyan, müxtəlif elmi konfranslarda iştirak edən gənc nəsli hansı kitablarla maraqlandırmaq istəyirsiniz?! İslam dinini məntiqi şəkildə, əsrin dilində anladacaq kitablarınız varmı? Bilməlisiniz ki, sizin ehkamçı nəsihətləriniz onları qane etmir. Sizin yanlış təbliğatınız nəticəsində bu gənclər İslam dininə həqarətlə baxmaqdadırlar. Necə olur ki, parlaq düşüncələri təzimə gətirən bir din gənc nəsli qane etmir?! Onların məzhəbə yönəlmiş ittihamlarının günahkarı bizik! Görün, bu nəsil bizi necə ittiham edir: Ey mənim atam, ey mənim anam! Sizin din və məzhəb, bu ada söykənmiş əqidə və əməlləriniz büsbütün faydasızdır! Sizin dininiz insanı dünyadan çəkindirir, bütün diqqəti ölüm və ölümdən sonrakı həyata yönəldir. Mən müasir və təhsilli bir gəncəm və ölümdən qabaqkı həyat mənim üçün maraqlıdır. Sənin dinin isə bu həyata aid bir söz deyil. Sən deyirsən ki, bu din qəbir sorğusuna cavab vermək üçündür. Bəs bu dinin qarışıq dünyanı islah etmək üçün nəyi var? Bütün dünya od içində yanır, sən isə yalnız Qiyamət odunun fikrini çəkirsən. Mənim üçün isə bu gün bəşəriyyəti yandıran od daha əzabvericidir. Mən bu odu söndürəcək bir şey axtarıram.

Ey ata, ey ana! Mən sizin xəlvəti dualarınızı eşitdim. Siz Allahı bütün müqəddəsliklərə and verərək ondan qurtuluş, sağlamlıq, xoşbəxtlik, borcların ödənməsini, xəstənizə şəfa, ruhların bağışlanması, Behiştdə övliyalarla yaxınlıq istəyirdiniz. Bu necə dindir ki, ona etiqad edən dindar bəşəri problemləri qoyub, yalnız özü haqqında düşünür? Mən bir şəxsə yox, bütün bəşəriyyətə nicat verəcək bir din sorağındayam.

Ey ata, ey ana! Aramızda böyük fərqlər var. Sənin düşüncəndəki Allah səni bütün məsuliyyətlərdən azad edir. Sən öz Allahına yalvarmaqla bütün cinayətlərin üstünü örtə bilirsən. Sənin dinindəki gedişatlar bizim cəmiyyəti xatırladır. Məsələn, bizdə məhkəməyə işi düşən adam hakimə yol axtarır. Sən öz dinində də bu üsulla hərəkət edirsən. Öz Allahına inamın səni cinayətdən çəkindirmir. Əksinə, sən bağışlanmaq üçün vasitə tapacağına əmin olub istənilən qanunu pozur, heç bir cinayətdən çəkinmirsən! Dinin səni günahlardan çəkindirə bilmir. Hansı ki, İslam dinində bu işlərin günah elan edildiyi sənə məlumdur!

Bir sözlə, sənin mənə göstərdiyin din yolu məni dünyada düçar olduğum bədbəxtçiliklərdən qurtarmaq iqtidarında deyil. Mən azad və başıuca olmaq istəyirəm. İnsanları hiyləgərliklə azadlığa çağıran küfr ilə, sənin təqdim etdiyin yanlış, həyatı donduran dinin arasında fərq görmürəm.

# SƏN MƏNƏ "QADAĞALAR" DİNİ VERDİN!

Ey ata, ey ana! Sən mənə qadağalar dini verdin. Mənə göstərdiyin yol, verdiyin məsləhətlər, öyrətdiyin əxlaqi dəyərlərin məğzi bu oldu: getmə, baxma, demə, anlama, hiss etmə, yazma, oxuma! Bunların ki, hamısı «yox» oldu. Amma mən işıqlı bir yol göstərən din istəyirəm. Yazıçılardan biri deyir: «Vay o dinin halına ki, onda «yox» «hə»dən çox olsun». Mən isə səndən bir dənə də olsun «hə» eşitmədim!

Ey ata, ey ana! Sən müqəddəs hesab etdiyin Qurandan bu gün nə anlaya bilərsən? Sən o kitaba etiqadlı olduğun halda, mənim qədər xəbərsizsən. Amma daim onu gözünə, sinənə, körpənin beşiyinə, xəstənin balışına sürtürsən. Evdən çıxanda bir neçə ayə oxuyub, qıfıla üfürürsən. Məgər Allah öz kitabını bunun üçünmü göndərib? Amma elə bir qıfıl almaq olar ki, üfürülməmiş də onu kimsə aça bilməz! Əgər Quran bir neçə ayəni boyundan asmaqla sağlamlığı qorumaq üçündürsə, belə çıxır ki, xəstəliyə qarşı peyvənd (vaksin) vurduranların sənin «Quran»ına ehtiyacları yoxdur!

Sən düşünüb ağıl yolu ilə doğru yolu seçmək əvəzinə, yeri gəldi-gəlmədi istixarə edirsən. Amma mən sənin verdiyin tərbiyə sayəsində dindar olmadığım halda, Qurana bu qədər ucuz yanaşılmasına tərəfdar deyiləm. Mən elm və biliyin köməyi ilə əqlimi işə salıram və qarşıma çıxan suallara məntiqi cavab axtarıram. Mən Quranı istixarə üçün yox, həqiqəti tapmaq üçün oxuya bilərəm. Əgər sən gözlərini yumub Quranı açırsansa, mən gözlərimi açıb Quranı oxumaq istəyirəm! Atacan, əgər bir kimsə mənim dərsliklərimlə bu sayaq qeyri-ciddi rəftar etsə, mənim qanım qaralar. Sənin bu kitablara münasibətin məndə belə bir təsəvvür yaratdı ki, bu kitab oxumaq üçün deyil və mən başqa kitablara üz tutdum.

Ey ata, ey ana! Mən sizin namazınızda heç bir əxlaqi təsir görmürəm. Nə dediyiniz sözlərin mənasını anlayırsınız, nə də ibadətin fəlsəfəsindən xəbəriniz var! Sizin namazınız idman hərəkətlərini xatırladır. Əgər namaz təkcə idman xarakterində olacaqsa, daha əhatəli fiziki hərəkətlər kompleksi tapmaq olar! Mən isə hər sübh təsirli musiqi sədaları altında düşüncəmdə əsər qoyan şerlər oxuyuram.

Gəlin həqiqəti birlikdə araşdıraq. Hamıya məlumdur ki, namaz qılan şəxs Allahla danışır. Necə ola bilər ki, Allahla danışan insan dediyi sözlərin mənasını və nə istədiyini başa düşməsin?! Sizin diqqətiniz yalnız hərflərin düzgün tələffüzünə yönəlib! Görəsən, bu dünyada sizdən başqa bu qədər yalvardığı halda nə istədiyini bilməyənlər varmı?! Qarşınızda dayanıb sizə yalvaran və nə istədiyini bilməyən adama necə baxarsınız? Siz ona nə verərsiniz? Həmin adamın yalvarmağa adət etdiyinə və yalnız qorxudan yalvardığına əmin olsanız, onun sözlərini qulaqardına vurmazsınızmı?!

Əgər Allah bir insanı onun diqqətsizliyinə görə xoşlamasa, elə namazın ilk rəkətində dərgahından çıxarar, elə bir yerə atar ki, dünya cəhənnəmində axirət behişti arzulasın! Belə kişi cəhalətdə «Əbu Ləhəb», arvadı isə «Həmmalətəl-hətəb» olar. Əgər Allah rəhm etsə, onu həmin yerdən buraxar və həmin şəxs ömrü boyu dəyirman atı tək yerində fırlanar. Bir ömür qaranlıqda yol getdikdən sonra görər ki, çıxış nöqtəsinə çatıb. Budurmu möminlik?!

Ey ata, ey ana! Alıcı gözlü qərb qarətçilərinin cövlan etdiyi üçüncü dünyada övladından nə gözləyirsən?! Vay olsun o namaz qılanların halına ki, qəflətdədirlər. Onlar Allaha ibadət etdiklərini güman etsələr də, əslində, bütpərəstlərə oxşayırlar. Bu bütlər nə İbrahim, nə də Məhəmməd (s) əsrindəki bütlərdir.

Məgər oruc şam ilə naharın vaxtını dəyişməkdən ibarətdir?! Əgər orucun mahiyyəti təkcə bundan ibarətdirsə, mən həkimlə məsləhətləşib, daha münasib rejim tutaram! Sən isə mədə yarasından əziyyət çəkdiyin halda oruc tutur, özünü təhlükəyə atırdın. Müqəddəs saydığın ramazan ayında səndə aclıqdan başqa bir dəyişiklik görmədim. Tutduğun oruc sənin əqidə və rəftarındakı nöqsanları aradan qaldıra bilmədi.



# "GÖVHƏRŞAD" MƏSCİDİ

## *Həzrət İmam Rzanın (ə) məqbərəsi kənarında yerləşən "Gövhərşad" məscidi ilə bağlı maraqlı hekayə*



***Uşaqlıq və yeniyetməlik çağlarımda atamın dindarlığından, onun elm əhli ilə, məscid və dini məclislərlə olan əlaqəsindən təsirlənərək elm əhlinə, məscidə və İlahi məclislərə qarşı böyük bir eşq tapdım. Zalım hakimiyyət dövründə camaatın, xüsusi ilə də cavanların əksəriyyətinin fəsad içində olduğu bir dövrdə dini mərkəzlərlə, əməlisaleh alimlərlə münasibətdə olmaq daxili şəxsiyyətimin formalaşmasına çox böyük təsir göstərmişdi. Bütün bunların təsiri nəticəsində 42-ci ildə 16-17 yaşında olarkən, böyük bir məhəbbətlə Qum elmi hövzəsinə gəldim və təbii olaraq, burada elm və elm əhli ilə daha yaxın münasibətlərdə oldum.***

***Təhsil aldığım dövrlərdə mənəviyyatlı şəxslərlə, parlaq simalarla görüşmək şərəfinə nail oldum. Danışmaq istədiyim hadisəni hansı alimdən eşitdiyim yadımda deyil. Lakin çox maraqlı və ibrətamiz bir hadisədir. Əməlisaleh, mömin qadının ruhi və fikri mövqeyinin göstəricisidir.***

***O böyük şəxsiyyət deyirdi: «İmam Rzanın (ə) məqbərəsinin kənarında yerləşən Gövhərşad məscidini tikən qadın çox kəramətli, savadlı, ziyalı bir qadın idi. O, məscidin tikilişinə başlamazdan öncə memar və işçi heyətinə dedi: «Tikinti materiallarını məscidə gətirən heyvanların yolu üstünə su və ələf qabları qoyun. Heç bir heyvan ac, susuz bir vəziyyətdə yük daşımasın. Bu, Allahın bəyənmədiyi, vicdana sığmayan bir işdir. Miniklərin sahibinin onları vurmağa haqqı yoxdur. İş saatları müəyyən olunmalıdır.***

*Fəhlələrlə mehriban davranın. Zəhmət haqqlarını vaxtında verin, heç bir şəxsin qəlbini incitməyin. Onlara bir söz demək lazım olduqda mülayimcəsinə, yumşaq dil ilə deyin. Ətrafda yerləşən evləri satılan qiymətə alın. Çünki ibadət evi, ziyarətgah, ilahi elmlər oxunacaq, tədris olunacaq elm mərkəzi tikirik. Bu yolda heç bir heyvan və insana zülm olunmamalıdır. Bu bizim müqəddəs işimizin dəyərini azaldır».*

*Həzrət Əli (ə) Nəhcül-bəlağədə buyurur: «Həqiqətən, siz hər biriniz yer və heyvanlar qarşısında məsulsunuz».*

*O alim deyirdi: «Çox vaxtlar Gövhərşad xanım özü məscidə baş çəkməyə gəlir və lazımi tapşırıqlar verirdi.*

*Bir gün fəhlələrdən biri təsadüfən onun çöhrəsini görür və ona vurulur. Amma ürəyini açmağa cürəti çatmır. Bunun çox təhlükəli olduğunu düşünür. Çünki Gövhərşad xanım Şahrux Mirzənin həyat yoldaşı, Teymur Kürəkaninin gəlini idi. Ona ürək bağlamağın yeri deyildi. Lakin bütün bunlar sadə fəhlə üçün anlaşılmaz idi. Bu səbəbdən də həmin fəhlə xəstələndi. Gövhərşad xanım məscidin gündəlik işi haqqında verilən məlumat vasitəsilə anası ilə birgə bir xarabalıqda yaşayan fəhlənin xəstələndiyindən xəbər tutdu və ona baş çəkməyə getdi. Zəifləmiş xəstə rəngi qaçmış vəziyyətdə yataqda zarıldayırdı. Hal-əhval tutduqdan sonra xəstəliyinin səbəbi soruşulduqda, fəhlənin özündən də sadə olan anası məsələni açdı. Gövhərşad xanım əsəbləşmədən, öz ictimai mövqeyindən istifadə etmədən fəhlənin anasına dedi: "Mən ərimdən ayrıldıqdan sonra, sizin oğlunuza ərə getməyə hazıram. Lakin öncə mənim mehrim – kəbin haqqım ödənilməlidir. Bu gənc tikilməkdə olan yarımçıq məscidin mehrabında qırx gecə-gündüz Allaha ibadət edərsə, bu mənim mehrim olar".*

*Cavan fəhlə bu şərti qəbul etdi. Bir neçə gün eşq həyəcanı ilə ibadət etdi. Lakin bir neçə gündən sonra Gövhərşad xanımın öncədən bildiyi bir həqiqət baş verdi. Haqqın mərhəməti, İmam Rzanın (ə) lütfü ilə gəncin halı dəyişdi. Qırx gündən sonra Gövhərşad xanım onunla maraqlandı, lakin o, xanımın göndərdiyi şəxsə dedi:*

*Əgər ləzzəti tərk etməyin ləzzətini bilsən,*
*Artıq nəfs ləzzətini ləzzət adlandırmazsan.*

*İmandan, Allaha, Qiyamətə diqqətdən bəhrələnərək ailəni mənəvi fəzilətlər məkanına çevirmək olar. Bu, çətin iş deyil. Allah kimə lütf edərsə, digərləri üçün çətin olan iş belə onun üçün asan olar.*







# MARTİN LİNQS İNGİLTƏRƏLİ ARİF



**Martin Linqs 1909-cu ildə İngiltərənin Mançester şəhərində xristian protestant ailəsində dünyaya gəlmişdir. İyirmi yaşında əksər Qərb gəncləri kimi onun da xristianlığa inamı itib. Amma heç vaxt həqiqət axtarışından əl çəkməyib.**

M. Linqs 1932-ci ildə 23 yaşında olarkən Oksford universitetinin "Madeline" kollecindən ingilis ədəbiyyatı üzrə bakalavr və 1937-ci ildə isə magistr dərəcəsi alıb. Bir müddət Polşada tədrislə məşğul olur. Daha sonra isə 1939-cu ilədək Litva universitetində "Anqlosakslar ingiliscəsi və orta dövr" ixtisası üzrə professor vəzifəsində çalışıb. 1940-cı ildə isə Misrə gedir və 1951-ci ilədək Qahirə universitetində çalışır. O, 1944-cü ildə Lesley Smalleylə (Martin Linqs səkkiz yaşından Lesley Smalleyi tanıyırdı. O vaxt Lesleyin 4 yaşı vardı) ailə qurur və ömrünün sonuna qədər (2005-ci il 12 may) onunla yaşayır.

M. Linqs 1935-ci ildə Rene Genonun bir əsəri ilə tanış olur. Linqs Genonun əsərlərindən çox təsirlənir. Genonun yazıları Linqsə aşılayırdı ki, din (xüsusilə xristianlıq) yeni dövrdə insan ağlına əhəmiyyət vermədən yalnız onun emosiyalarını qidalandırır və modernizm faciəsi birbaşa bunun nəticəsidir. O vaxt Linqs hələ də rəsmən xristian idi. "Genonu kəşf etməyim məni ildırım kimi vurdu. Həqiqətlə üz-üzə durduğumun fərqindəydim... və nəsə eləməli idim", - Linqs deyir.

R. Genon həm də fransızca nəşr edilən "Études Traditionnelle" (Ənənəvi tədqiqatlar) jurnalının redaktoru idi. Bu jurnalın yazarları arasında yalnız almaniyalı Fritof Şuonun məqalələri onun diqqətini cəlb edirdi. Bir il sonra- 1938-ci ilin yanvar ayında M. Linqs Şuonun İsveçrədə olmasından xəbər tutur və onun görüşünə tələsir. Görüşdən öncə Şuon Titus Burkxardt vasitəsi ilə ona xəbərdarlıq etmişdi ki, əgər bizim "təriqət"imizə qoşulmaq istəyirsənsə, mütləq müsəlman olmalısan. Düzdür, bu təklif M. Linqsi heyrətə salmışdı, amma tərəddüdsüz bunu qəbul etdi. O gündən sona qədər Şuon onun mürşidi olaraq qaldı.

Misirdə Qahirə universitetində tədrislə yanaşı ərəb dilini mükəmməl mənimsəmək üçün cəhd edirdi. Bununla yanaşı Rene Genonun (müsəlman adı Şeyx Əbdülvahid Yəhya) assistenti olaraq çalışırdı. Bu dönəmlərdə "Əminlik kitabı: İrfan əsaslarında din, hikmət və mərifət" adlı ilk kitabını öncə ərəbcə, daha sonra isə ingiliscəyə tərcümə edərək özünə seçdiyi Əbubəkr Siracəddin adı ilə nəşr etdirir. Fikrinin dərinliyi, əhatəliyi və ingiliscə fövqəladə yazı şivəsi- bu şivə daha çox şeirə bənzəyirdi-ilk dəfə bu kitabda özünü əks etdirdi.

1951-ci ildə Rene Genon vəfat edir. Bu ildə həm də Misir inqilabı və Camal Əbdünnasirin iş başına gəlməsi ilə nəticələnən iğtişaşlar baş qaldırır (Qahirə universitetində üç ingilis professoru qətlə yetirilir, qalanları ixrac edilir ). Bu zaman M. Linqs həyat yoldaşı (o da müsəlman olmuş və özünə Rəbiə adını seçmişdi) ilə birgə Londona qayıdır. Orada yenidən təhsilini davam etdirir. Bir müddətdən sonra London universitetindən ərəb dili üzrə bakalavr dərəcəsi alır. Britaniya muzeyində işə düzəlir. Bu zaman əlcəzairli arif Şeyx Əhməd Ələvi barədə namizədlik dissertasiyasını da yazıb bitirir. Bu əsər sonradan "İyirminci əsrdə bir vəli" adı ilə nəşr və dünyanın bütün əsas dillərinə tərcümə edilir və elm adamları bu kitabı çox müsbət qarşılayırlar.

Bu əsərdən az sonra "Qədim inanclar, müasir xurafatlar" kitabını modern dünyanın tənqidi üzərində qələmə alır.

O, muzeydə və milli kitabxanada çalışdığı dönəmlərdə Şərq dünyasına dair orijinal və nadir əsərlərdən istifadə etmək imkanına malik olduğu üçün daha ustalıqla qələmə aldığı "Quran xəttatlığı sənəti və işıqlı əlyazma (Təhzib)" əsərini nəşr etdirir. Demək olar elə həmin zamanda uzun araşdırmalarının nəticəsi olan ""Təsəvvüf nədir?"" adlı çox nəfis əsərini də nəşr etdirir.

Amma Martin Linqsin əsərləri arasında ən çox tanınan və hamının nəzərinə görə, onun şah əsəri sayılan "Məhəmməd (s): ilk mənbələr əsasında Onun həyatı" əsəridir. Bədii və elmi məziyyətlərə malik olan bu əsər indiyədək fransız, italyan, ispan, türk, alman, mali, ərəb, ordu, isveç və s. dillərə tərcümə edilib və 1983 və 1990-cı illərdə Pakistan və Misirdə ən böyük mükafatlara layiq görülüb. M. Linqs həm də bir çox digər əsərlərin müəllifidir.



# Peter Schütt

## İslamı qəbul edən kommunist

**Peter Schütt (reportyor və şair) 1939-cu ildə Almaniyada dünyaya gəlib. 1967-ci ildə fəlsəfə doktoru dərəcəsi alıb. Almaniyada Kommunist partiyasının banilərindən biridir. Bütün əsərlərini kommunist ideologiyasına həsr edib. Beləki bəzi alaman mediası onu partiyanın "saray şairi" adlandırıb.**

O, 1988-ci ildə partiyadan ayrılır və kommunizm əleyhinə tənqidi məqalələr və kitablar dərc etdirir. 1987-ci ildə bir iranlı qadınla evlənir. 1990-cı ildə isə İslam dininin Cəfəri məzhəbini qəbul edir. 1996-cı ildə Həcc ziyarətinə gedib. O, Almaniyanın "Die Welt" qəzetində dərc olunan məqaləsində müsəlman olmasının səbəblərini izah edib. Həmin məqalədən bəzi parçaları təqdim edirik:

Uşaqlıq və gənclik çağlarımda İslam mənə maraqlı gəlirdi

Mən nə müsəlman ailəsində dünyaya gəlmişəm və nə də İslamı təsadüfi qəbul etmişəm. Mən ömrümün yarısını həqiqi din axtarışına həsr etmişəm. Ömrümdə yalnız bir dəfə dinimi dəyişmişəm. 19 yaşım olanda lüteran ata evinin sıxıntılarından yaxa qutarmaq üçün katolik oldum və 30 il sonra isə İslama tapındığımı elan etdim.

Hələ uşaqlıq çağlarından İslam mənə maraqlı gəlirdi. Müharibədən sonrakı illərdə bizim məntəqəmiz ingilis qüvvələrinin işğalında idi. Bizim kənddə bu qüvvələrin nümayəndələri olan 6 nəfər əmmaməli hind müsəlmanı var idi. Onlar kəndin restoranında məskunlaşmışdılar. Bizi çox qəribə formada özlərinə cəlb etmişdilər. Bizə xurma və əncir verirdilər. Onlar ibadət edərkən onlara baxmağımıza icazə vermişdilər. Beləliklə İslamın ibadət ayinləri çox tez bir zamanda zehnimdə həkk oldu.

Götenin "İlk alman hacısı" adlandırdığı Karsten Nibur 200 il öncə ərəb ölkələrinə səfər etmiş və ilk alman vətəndaşı olaraq Məkkə və Mədinədə mövcud olan müqəddəs abidələr barədə çox dəqiq formada məlumat dərc etmişdi. Bizim evimizin yaxınlığında olan kilsədə bu reportajın bir hissəsi mövcud idi. Bu reportaj mənim gənc və axtarışda olan qəlbimə bir cavab oldu və mənim ilk daxili (mənəvi) səfərimi yönləndirdi.

Tələbəlik illərində də İslamla maraqlandım. Namizədlik dissertasiyamı Andreas Qrifiusun Barokko dövrü dramları əsəri əsasında yazmışam. Bu dramlardan biri "Catharine of Georgia"dır və əsərin yarısı İsfahanda baş verir. Katarinanın (Catharine) tərəf müqabili Şah Abbasdır. O, hiylə və aldadıcı vədələrlə Katarinanı hərəmxanasına aparmağa cəhd göstərir. Qrifiusun əsərləri ilə tanışlığım planlı şəkildə İslam incəsənəti və mədəniyyəti barədə tədqiqat aparmağıma səbəb oldu.

Hamburqda beynəlxalq tələbə yataqxanasında da böyük elmi və mənəvi yüksəlişlərim oldu. Dörd il iranlı, misirli və nigeriyalı tələbələrlə birgə qalmışam. Gecə-gündüz bir-birimizlə mübahisələr aparırdıq. Əlbəttə yalnız ideoloji məsələlər barədə yox. Yataqxananın kitabxanasında münəzzəm olaraq xristianlar, yəhudilər və müsəlmanlarla dini bəhslər edirdik. O vaxtları İslam mənim üçün ən əvvəl üçüncü dünya ölkələrinin xilası üçün bir nəzəriyyə idi.

### Keçmiş səhvlər

Tələbə hərəkatı başa çatdıqdan sonra Moskva tərəfdarı olan Almaniyanın Kommunist Partiyasına qoşuldum. Bir partiya və icraçı heyətinin üzvü kimi səhv olaraq belə düşünürdüm ki, İslamla sosializm bir sikkənin iki üzü kimi bir-birlərini tamamlayırlar: sosializm yer üzərindəki, İslam isə ilahi ədaləti əks etdirir.

SSR-də İslamın ən böyük nümayəndələrindən biri olan Daşkənd müftisinin evində qonaq idim. Böyük sevgi ilə onun İslam əxlaqı barədə fikirlərini dinləyiridim və inanmaq istəmirdim ki, o işlərini KGB-nin göstərişi əsasında tənzimləyir.

"Sibirə doğru" kitabımda Orta Asiyada SSR müstəmləkəsində olan İslamla kommunizmin bir-birlərini yaxşı formada təkmilləşdirməsi barədə yazmışdım. Hamburqda Şərqşünaslıq institutunda Orta Asiya barədə keçirilən konfransda Annemari Şimmellə ilk dəfə görüşdüm. Uzun-uzadı üz qabığında oraq və çəkicin şəkli parıldayan kitabıma baxıb dedi: "Lütfən çəkici götürün. Təkcə oraq qalsın. O da hilala çevrilərək İslam səmtini sənə göstərəcək". Onun bu təklifini səmimi qəlblə qəbul etdim və sonradan həmişə ondan çıxış yolu barədə məsləhətlər alırdım. Onun İslam dini barədə kitabları mənə çıxış yolunu göstərdi.

1987-ci ildə İslam axtarışında olan bir şəxs kimi İrana dəvət edildim. Bu səfər məndə böyük təsir qoydu. Bir neçə ildən sonra-1991-ci ildə qəti şəkildə İslam dinini qəbul etdim.

Hamburq İslam Mərkəzi İslam inqilabının ilk illərindən, hətta qrupda rəsmi olaraq üzv olmazdan qabaq mənim üçün böyük başlanğıc nöqtəsi olmuşdu.

Bu gün artıq on beş ilə yaxındır ki, Alman dilli Müsəlmanlar Birliyinin (Bu birlik 1967-ci ildə Mehdi Rəzəvi tərəfindən yaradılıb) üzvüyəm. Şənbə günləri günortadan sonra bir araya gəlirik. Heç kəsə məzhəbini dəyişmək üçün təzyiq göstərmirik. Əksinə yolumuz üstə göyərən, tez dinini dəyişən şəxslərə şübhə ilə yanaşırıq. Təcrübələrə əsasən, onlar davam gətirmirlər. Onlar İslam və Quran barədə çox da məlumatlı deyillər, adətən yanlış təsəvvürlərə malikdirlər.

M. Rəzəvi 1967-ci ildə birinci surənin təfsirinə başladı. İki il öncə onun yerinə seçilən Halima Krausen artıq 41-ci surəyə çatıb.

Kağız üzərində müsəlman olmaq çətin deyil. Təkcə bir şahidin yanında şəhadət verməlisən. Amma bir günün içində həqiqi müsəlman olmaq çətindir. Səmimi qəlbdən Allahın iradəsinə təslim olmaq üçün boş sözlərdən başqa şeylərə də ehtiyac var.

İDRAK.info



# İKİ DÜNYA ARASINDAKI FƏRQLƏR



**Görəsən axirət dünyasına da bu dünyaya hakim olan təbii qanun və əsaslar hakimdirmi? Görəsən bu dünya ilə axirət dünyası arasında fərq və ya fərqlər vardırmı? Axirət dünyası eyni ilə bu dünya kimidirmi və onun yeganə fərqi zaman baxımından bundan sonra gəlməsidir?**

Bu iki dünya arasında fərqin mövcudluğu qətidir. Əgər oxşarlıqlar varsa, fərqlərin olması da inkaredilməzdir.

Onlar müxtəlif qanunların hakim olduğu iki həyat və iki dünyadırlar. Hökm çıxarmaqda tələsməyin, mən ilahi ədalətin dünyanın qanunlarından olub, axirətə aid olmamasını və orada zülmün rəva olmasını demək istəmirəm. Xeyr, bir qədər diqqət yetirsəniz məlum olar ki, mən digər bir mətləbi çatdırmaq istəyirəm.

Bu iki növ həyat arasında mövcud olan fərqləri göstərmək üçün əlimizdə heç bir misal yoxdur. Çünki hər hansı bir misalı gətirmək istəsək, onun bu dünya qanunlarına aid olması qaçılmaz bir iş olacaq. Amma zehnləri həmin məsələ ilə tanış etmək üçün bir qədər güzəştlə dünya və axirəti ana bətni ilə dünyaya oxşatmaq olar. Həmin misaldan bundan əvvəl də, başqa bir məqsəd üçün istifadə etmişdik.

Uşaq ana bətnində olanda bir növ həyat tərzinə, doğulduqdan sonra isə digər bir həyat tərzinə malik olur. Bu iki həyat tərzinin müştərək cəhəti, onların hər ikisində qidalanma xüsusiyyətinin olmasıdır. Amma ana bətnində olan döllə, dünyaya gələn uşağın qidalanması arasında fərq vardır. Uşaq ana bətnində bir bitki kimi yaşayır. Bitki öz kökü ilə qidalandığı kimi, uşaq da göbək vasitəsi ilə ananın qanından qidalanır və həmçinin nə ciyərləri ilə nəfəs alır və nə də mədəsi hansısa bir fəaliyyət göstərir. Amma bu dünyaya ayaq basan kimi, onun əvvəlki yaşayış tərzi dəyişir, həyatına başqa bir quruluş hakim olur. O, burada bir an belə əvvəlki kimi yaşaya bilmir və yeni yerləşdiyi bu dünyada nəfəs almalı və ağızı ilə yemək yeyərək qidalanmalıdır. Doğulmamışdan qabaq ciyərinə hava, mədəsinə isə yemək getsəydi o, ölərdi. İndi isə bunun əksi olub. İndi əgər bir neçə an ciyərinə hava getməsə və bir neçə saat yemək yeməsə ölər. Uşaq doğulandan sonra onu əvvəlki şəraitdə, məsələn bağlı bir qutuda yerləşdirərək ona, göbək vasitəsi ilə qan vurmaq və onun ağız-burun yollarını bağlamaqla saxlamaq olmaz. Çünki uşağın yaşayış sistemi dəyişib və o, bu yeni sistemdən istifadə etməlidir.

Axirət dünyası da bu dünya ilə müqayisədə belədir. Orada olan həyat tərzi bu dünyadakından fərqlidir. Hər iki dünyada yaşayış var, amma onlar eyni deyildirlər. Oradakı yaşayışın qanun və sistemi, bu dünyadakından fərqlidir. Başqa sözlə desək, dünya ilə axirət iki aləm və həyatdırlar. Bu iki dünya arasındakı fərqləri əldə etmək üçün bu barədə dini sənədlərdə olan vəsflərə müraciət etmək lazımdır.

**İndi isə onlar arasındakı bir neçə fərqə işarə edək.**

1. Sabitlik və dəyişkənlik; Bu dünyada hərəkət və dəyişkənlik mövcuddur. Burada uşaq böyüyür, kamilləşir və sonra qocalaraq ölür. Bu dünyada yeni şeylər köhnəlir və köhnələr aradan gedir. Amma axirət dünyasında qocalıq və köhnəlik yoxdur. Orada ölüm məsələsi də yoxdur. Bu dünya fanilik, axirət dünyası isə əbədilik dünyasıdır. Bura aradan getmə və fanilik, ora isə sabitlik və bərqərarlıq evidir.

2. Xalis və saf olmayan həyat; İkinci fərq budur ki, bu dünyada ölümlə həyat bir-birinə qarışıb, amma ora birbaşa yaşayış dünyasıdır. Burada cansız əşyalar və heyvanlar var və onların hər biri digərinə çevrilir. İndi bizim bədənimiz olan və yaşayan cismimiz, nə vaxtsa ölü və cansız olub və həyat bir daha ondan ayrılacaq və o, cansız hala qayıdacaqdır. Dünyada həyatla ölüm bir-birinə qarışıb. Amma axirətdə belə deyildir. Axirətin torpaq, gövhər, çınqıl, ağac və meyvələrinin hamısı həyata malikdirlər. Od orada da şüurlu və fəaldır.

Qurani-kərim «Ənkəbut» surəsinin 64-cü ayəsində belə buyurur:

«Axirət yurdu isə , şübhəsiz ki, əbədi həyatdır.»

Axirət canlı bir varlıqdır.

Bu dünyada bədən üzvləri şüur və dərkə malik deyildirlər. Amma axirət dünyasında dəri, bədən və dırnağın da dərk etmə qüvvəsi var və onlar hətta söz də danışırlar. Qiyamətdə ağızlara möhür vurulacaq və hər bir bədən üzvü gördüyü iş barəsində özü danışacaqdır.

Dildən sual soruşulmayacaq ki, o da yalanla əməlləri ört-basdır edə bilsin. Orada bütün üzvlər danışıq qüvvəsinə malik olacaq və öz gördükləri işləri izah edəcəklər.

Qurani-kərim «Yasin» surəsinin 65-ci ayəsində belə buyurur:

«Bu gün (Allaha and olsun ki, biz müşrik, kafir deyildik dediklərinə görə) onların ağızlarını möhürləyirik. Etdikləri əməllər (qazandıqları günahlar) barəsində onların əlləri bizimlə danışar, ayaqları isə şəhadət verər.»

Başqa bir yerdə isə insanların öz bədən üzvləri ilə bəhs və mübahisə etmələrini nəql edib. Quran, qiyamətdə günahkarların qulaq, göz və digər bədən üzvlərinin onların əleyhinə şəhadət vermələrini bəyan etdikdən sonra, həmin insanlarla onların bədənləri arasındakı mübahisəni belə vəsf edir:

«Onlar öz dərilərinə: Nə üçün əleyhimizə şəhadət verirsiniz?- deyəcəklər. Dəriləri də belə cavab verəcəkdir: Hər şeyi dilə gətirən Allah bizi danışdırdı...»

3. Əkin və biçin; Dünya ilə axirətin üçüncü fərqi budur ki,

bura əkin və toxum səpmə yeri, ora isə məhsul götürəmə və biçin yeridir. Axirətdə əməl və ya müqəddimə yoxdur, orada nə varsa məhsul və nəticədir. Ora imtahanların qiymətləri elan edilən gün kimidir. Əgər şagird imtahan vaxtı dərs oxumağa bir az möhlət verilməsini istəsə və ya qiymətlər bildiriləndə «məndən indi soruşun cavab verim» desə, alacağı cavab bu olacaq ki, imtahanın vaxtı keçib, indi qiymət vermək vaxtıdır. Peyğəmbərlərin «camaat, saleh əməllərlə məşğul olun və axirət evi üçün azuqə toplayın» deyə, fəryad etmələrinin səbəbi də əməl vaxtının məhdud olmasıdır.

Əmirəl-möminin (ə) buyurur:

«Bu gün iş və əməl günüdür və hesabat yoxdur, sabah isə hesabat günüdür və (orada) iş (imkanı) yoxdur.»

O həzrət digər bir xütbəsində isə belə buyurur:

«Ey Allah bəndələri, dil və bədənlərinizin sağlam olduğu, bədən üzvlərinizin sözünüzə baxdığı və fəaliyyət meydanı açıq olduğu indiki vaxtda iş görün.»

Yəni, bədən sənin fəaliyyət göstərməyin və iş görməyin üçün vasitədir, səndən alınmamışdan və məhv olmamışdan qabaq onunla iş gör, (özü də) sənə xeyir və faydası olan iş!

Möhlət qurtardıqdan və Qadir Allahın əmri ilə ruh bədəndən ayrıldıqdan sonra, əlindən heç bir iş gəlməyəcək. Həmin vaxt «məni qaytarın yaxşı işlər görüm» deyib, nə qədər fəryad etsən, eşidəcəyin cavab bu olacaq: «Mümkün deyil!» Əgər ağacdan qopmuş kal meyvənin ağaca birləşməsi və onun, keçmiş vəziyyətinə qayıdaraq yetişib şirinləşməsi mümkün olsa, dünyaya qayıtmaq da mümkün olar. Amma yaradılış qanunu başqa cürdür.

Peyğəmbərin (s) bu barədə buyurduğu cümlə, necə də gözəldir. O həzrət buyurub:

«Dünya axirətin əkinəcəyidir.»

Bu hədisdə insanın ömrü, eləcə də dünya və axirət həyatı ilin iki fəslinə bənzədilib. Dünya əkin fəsli, axirət isə məhsul yığımı fəsli misalındadır.

4. Şəxsi və müştərək müqəddərat; Dünya ilə axirət arasında olan dördüncü fərq, dünyada müqəddəratların müəyyən qədər müştərək olmasıdır. Amma axirətdə hər bir şəxsin digərindən ayrı bir müqəddəratı var. Məqsəd budur ki, dünya həyatı ictimaidir və ictimai həyatda birlik və vəhdət mövcuddur. Xeyirxah insanların yaxşı işləri başqalarının səadətində təsir göstərir. həmçinin pis əməlli insanların pis işləri, cəmiyyətə mənfi təsir göstərir. Buna görə də burada müştərək məsuliyyətlər də vardır. Cəmiyyətin üzvləri bir bədən üzvləri kimi, az-çox bir-birlərinin cəzasını çəkməlidirlər. Onlardan birinin fəaliyyətinin pozulması başqa üzvlərin sağlamlıqlarının aradan getməsinə səbəb olur. Məsələn, qara ciyərin yaxşı işləməməsinin zərəri, digər üzvlərə də təsir göstərir.

Cəmiyyətin üzvləri müştərək müqəddərata malik olduqları üçün bir nəfər günah etmək istəyəndə başqaları ona mane olaraq qarşısını almalıdırlar. Peyğəmbər (s) bir nəfərin günahının cəmiyyətə təsirini bir misalla belə bəyan edib: Bir qrup adam gəmiyə minmişdi və gəmi dənizin ortasında hərəkət edirdi. Sərnişinlərdən biri öz oturduğu yeri deşməyə başladı. Digər sərnişinlər həmin şəxs öz yerini deşir deyə, ona bir söz demədilər və beləliklə su həmin yerdən gəmiyə dolaraq onu batırdı. Amma əgər digər sərnişinlər onun əlindən tutaraq həmin işi görməsinə mane olsaydılar, həm öz canları sağ qalardı və həm də onu xilas edərdilər.»

Dünyada qurunun oduna yaş da yanır və ya hansısa təhlükədən birlikdə nicat tapırlar. Bir qrupun müştərək həyat keçirdiyi cəmiyyətdə həm yaxşı və həm də pis işlərlə məşğul olanlar var. Bəzən pis işlərlə məşğul olanlar, xeyirxahlıq və yaxşı işlərlə məşğul olanların səmərəsindən bəhrələnirlər və bəzən də günahsız insanlar, günahkarların əməllərinin zərbəsindən ziyan görürlər.

Amma axirət dünyası belə deyil. Orada başqalarının əməlinə şərik olmaq qeyri-mümkündür. Nə biri başqasının gördüyü və heç bir rolu olmadığı işdən bəhrələnə bilir və nə də heç kimə, kiminsə günahına görə əzab verilir. Axirət «ayrılıq» evidir, yaxşını pisdən, pakı isə napakdan ayırır. Orada günahkarları çağırırlar ki: «Ey günahkarlar! Bu gün (möminlərdən) ayrılın!»

Orada ata oğuldan, oğul isə atadan ayrılar və hər kəs öz əməlinin cəzasını çəkər.

«...Heç bir günahkar başqasının günahını daşımaz...»

Bu fərqin yaranma mənşəyi, axirətin sırf feliyyət, bu dünyanın isə hərəkət, yəni istedadla hərəkətin bir-birinə qarışmış dünya olmasıdır. Sırf feliyyətlər bir-birlərindən təsirlənmir və bir-birlərinin kənarında olmalarına baxmayaraq, tərkibə girmirlər. Amma qarışıq feliyyətlər təsir qəbul edir və bir-birləri ilə tərkibə girmək imkanına malikdirlər. Buna görə də dünyada insanların bir növ vəhdəti olan «cəmiyyət» yaranır, amma «cəmiyyət» axirət üçün mənasız bir şeydir. Dünyada tədrici təsir göstərmə və tə'sirlənmə var, amma axirətdə belə bir şey yoxdur.

Dünyada xeyirxah insanlarla oturub-duranda, həmin yoldaşlıqdan müsbət təsirlər əldə edilir, pis insanlarla oturub-duranda isə azğınlığa səbəb olur. Mövləvi deyir:

Məzmunu: Gizli yollarla sinələrdən sinələrə məhəbbət və kinlər yol tapır.

Firdovsi isə belə deyir:

Məzmunu: Əgər ənbər satanın yanından keçsən, paltarını ənbər iyi bürüyər; əgər kömür satanın yanından keçsən, ondan pis və qaralıqdan başqa bir şey tapmazsan.

Axirət dünyasında isə adam əbədi olaraq xeyirxahlarla otursa da, onun məqamı yüksəlmir və həmçinin pislərlə oturanda da, onun dərəcəsi tənəzzülə uğramır. Orada kiminləsə oturub-durmaq təsirli deyil və heç bir şey digər şeylərə təsir göstərmir. Orada kiməsə kin bəsləmək və ya birinin xeyrini istəmək, sinədən sinəyə keçmir. Orada nə ətir satanla oturub-duranda adamdan xoş iy gəlir və nə də kömür satanla olanda üstünə qara toz qonur. Orada, istər təbii, istərsə də şərti mübadilə mövcud deyil. Alış-veriş mübadiləsi bu dünyaya məxsusdur.

Əlbəttə, «axirət dünyasında olan həyat ictimai deyildir» sözündən məqsəd, orada hamının fərdi və tək həyat keçirməsi, özündən başqa heç kəsi görməməsi və başqaları ilə ünsiyyətdə olmaması demək deyildir. Məqsədimiz budur ki, bu dünyada olan cəmiyyət, yəni fərdlərin həqiqi tərkibi nəticəsində yaranmış müqəddəratlar, onları bir-birinə bağlayan əxlaqi və mənəvi birliklər, təsirlənmə və təsir göstərmələr, əməkdaşlıqlar, ziddiyyətlər və mübadilələr o dünyada mövcud deyil. Amma həm cənnətdə və həm də cəhənnəmdə birgə və cəm həyat vardır, ancaq bu fərqlə ki, xeyirxah və əməli saleh insanların cəmiyyətlərində olanlar ünsiyyət, ülfət, səfa və səmimiyyətdədirlər. Qur'anın tə'biri ilə desək: «...Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər». Yaramaz şəxslərin cəmiyyətlərində isə nifrət, bir-birindən bezmək və xoşagəlməz sözlər hakim olar.

«...Hər tayfa (cəhənnəmə) girdikcə özündən əvvəlki dindaşına və ya tayfadaşına (onu doğru yoldan azdırdığı üçün) lənət oxuyacaq...»

«Şübhəsiz ki, bu — cəhənnəm əhlinin bir-biri ilə bu cür çəkişməsi, çənə-boğaz olması — bir həqiqətdir.»




***SOLDAN SAĞA***

*1. Məsciddə qiblənin tərəfində olan və imam camaatın namaz qılarkən durduğu yer.*
*5. Daha elmli və bayraq (ərbcə)*
*6. Orucu açmaq, (imsakın ziddi).*
*8. Bütün duaların sonunda işlənən söz. Mənası "Dua qəbul olsun!" deməkdir.*
*11. Qəsdən xəsarət törətmiş hər bir şəxsin etdiyi əmələ müvafiq cəzalandırma.*
*12. Məkkə ziyarətinin bir növü.*
*13. Bir əməlin pozulması. Yanlış əməl*
*17. Ən təqvalı*
*19. Müsəlmanları ibadətdən, xüsusilə namazdan əvvəl paklıq niyyəti ilə yuyunması.*
*21. İslam Peyğəmbərini (s) görən və o Həzrət (s) ilə birgə olan şəxs.*
*22. Müqəddəs şəxslərin məzarı yerləşən yerə səfər etmək.*
*23. Vəhy vasitəsi ilə yetişən ilahi proqram.*
*24. Quranda bir cümlə.*
*25. Həzrət Məhəmməd Peyğəmbərin (s) adı çəkildikdə deyilən söz.*

***ÜSTDƏN ALTA***

*2. Həcc zamanı hacıların geyindiyi xüsusi libas.*
*3. İslam aləmində ali dini rütbə.*
*4. Vətən, din və namus uğrunda həlak olmuş ölməz şəxs.*
*6. Riyadan uzaq pak niyyət.*
*7. Allahın təkliyinə etiqad.*
*8. Məhşər günündən sonrakı aləm.*
*9. Qeyri məsum şəxslərin qeyri-adi hərəkətləri.*
*10. Əvvəlcə başını və boynunu, sonra bədəninin sağ tərəfini, axırda isə sol tərəfinin yuyulması.*
*14. Gül yağı ilə suyun qarışığı.*
*15. İslam terminində təvazönün ziddi. Loğvalıq hissi.*
*16. Vəsiyyətlərini yerinə yetirmək üçün, yerinə seçilən canişin.*
*18. Zamanın sahibi olan gözlərdən gizlin İmam.*
*19. İmam Hüseynin (ə) Kərbəla səhrasında faciəvi ölüm günü.*
*20. Həzrət Məhəmməd Peyğəmbərin (s) və imamların dilindən söylənilən kəlam.*
*23. Amindən oncəki dilək və istək.*

# Allah yolu

Gər Allah yoluysa getdiyin bu yol,
Bu yolda tikanlar, tirlər olmalı.
Bu yolda acılar, zəhərlər bol-bol,
Hər acı, hər zəhər şəkər olmalı.

Çırmanıb meydana atılan zaman,
Gözləyir yolunu min ox, min kaman.
Şəhidlik həsrəti çəkdiyin andan,
Bədənin oxlardan pərpər olmalı.

Haqsızlıq çoxalır, zülmlər olur,
Azadlıq günəşi, qönçəsi solur,
Analar gözləri yaş ilə dolur,
Körpə beşikləri səngər olmalı.

Hey təhqir olunur mömin, müsəlman,
Zalımlar heç kimə verməyir aman,
Qarşında dursa da büsbütün cahan,
Sinən güllələrə sipər olmalı.

Qorxmayıb heç nədən haqqı desəniz,
Bu yolda döyülsəz, hətta ölsəniz,
Sanmayın yalqızsız, tənha, təksiniz,
İmam Mehdi sizə rəhbər olmalı.

*Rüfət*